## Ermənistan Azərbaycan Ordusunun mühəndis texnikasını atəşə tutub



**Ermənistan Azərbaycan Ordusunun mühəndis texnikasını atəşə tutub.**

Bu barədə "Şərq"ə Müdafiə Nazirliyindən məlumat verilib.

Bildirilib ki, oktyabrın 12-si saat 12:30-da Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Günəşli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Daşkəsən rayonunun Təzəkənd yaşayış məntəqəsi istiqamətində infrastrukturun bərpası məqsədilə tikinti-quruculuq işləri aparan mühəndis texnikamıza müxtəlif çaplı atıcı silahlardan atəş açıb. Azərbaycan Ordusunun qeyd olunan istiqamətdə yerləşən bölmələri tərəfindən cavab tədbirləri görülüb.

## Xəbəriniz olsun!

Metronun 3 stansiyasına giriş saat 23:30-da bağlanacaq



**Bənövşəyi xəttin "Xocəsən-Avtovağzal" sahəsində qatarların hərəkətinin təhlükəsiz təşkili dair sistemlərin sazlama və sınaq işlərinə başlanılır.**

Bu barədə Bakı Metropolitenindən bildirilib. Bununla əlaqədar oktyabrın 13-dən oktyabr 16-na qədər Bənövşəyi xəttin stansiyaları ("Avtovağzal", "Memar Əcəmi" və "8 Noyabr") sərnişinlərin girişinə saat 23:30-da bağlanacaq və qatarların hərəkəti məhdudlaşdırılacaq.



# Heç vaxt gec deyil

Bakılılar tramvaylara qayıtmağı arzulayır

**Media Təhlil Mərkəzi vətəndaşların ictimai nəqliyyatla bağlı fikirlərini öyrənib.**

MTM-nin sorğusunda iştirak edən respondentlərin 86 faizi ictimai nəqliyyatdan mütəmadi, 12,1 faizi nadir hallarda istifadə edir. İştirakçıların 1,9 faizi ictimai nəqliyyatdan istifadə etmədiyini deyib. Nəticələr göstərir ki, respondentlərin 62,1 faizi avtobusdan, 26,8 faizi metrodan, 8,7 faizi taksidən, 2,4 faizi sürət qatarından daha çox istifadə edir. Sorğu iştirakçılarının 52,6 faizi ölkəmizdə tramvayın, 34,6 faizi metrobusun, 12,8 faizi trolleybusun fəaliyyət göstərməsini istəyir.

*Xatırladaq ki, bir neçə il əvvəl tramvayların Bakıya qayıtması ilə bağlı layihələrin icrası aktual idi.*

(səh.5)

№ 186 (5707), 2022-ci il

Qiyməti 40 qəpik

ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 13 oktyabr 2022-ci il (cümə axşamı)



## Tarix hələ bəlli deyil

Rusiya Azərbaycan və Ermənistana üçtərəfli sammit keçirməyi təklif edəcək

**Rusiya Azərbaycan və Ermənistana üçtərəfli sammit keçirməyi təklif etmək niyyətindədir.**

Bu barədə Rusiya Prezidentinin köməkçisi Yuri Uşakov məlumat verib.

"Biz növbəti sammitin Rusiya, Azərbaycan və Ermənistan liderlərinin iştirakı ilə üçtərəfli formatda keçirilməsini təklif edəcəyik və ümid edirik ki, yaxın gələcəkdə onun keçirilmə vaxtını razılaşdıra biləcəyik", - Y.Uşakov jurnalistlərə deyib.

## İmzalar atıldı

MEDİA ilə Mətbuat Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb



**Medianın İnkişafı Agentliyi ilə Mətbuat Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov və Mətbuat Şurasının sədri Rəşad Məcid imzalayıblar.**

Sənədin imzalanmasında məqsəd MEDİA və Mətbuat Şurası arasında müştərək layihələrin reallaşdırılması istiqamətində səmərəli və faydalı əməkdaşlıq münasibətlərinin qurulmasıdır. Həmçinin, informasiya mühitinin şəffaflaşdırılması, jurnalistlərin peşəkarlığının və cəmiyyətin media savadlılığının artırılması, etik davranış qaydalarının tətbiqi sahəsində proseslərin stimullaşdırılması və bu məqsədlə digər fəaliyyətlərin koordinasiya edilməsidir.

(səh.4)

# "Erməni hərbçiləri Azərbaycan ərazilərindən tam çıxarılmayıb"

## Ceyhun Baramov MDB Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edib



**12 oktyabr 2022-ci il tarixində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov MDB Xarici İşlər Nazirləri Şurasının Astana şəhərində keçirilən iclasında iştirak edib. Əvvəlcə məhdud tərkibli formatda işə başlayan iclas daha sonra geniş tərkibdə davam edib.**

XİN-dən "Şərq"ə bildirilib ki, nazir Ceyhun Bayramov məhdud tərkibli iclasda çıxış edib. Çıxışında nazir, MDB çərçivəsində qarşılıqlı fəaliyyət, habelə regional və beynəlxalq gündəliyin aktual məsələləri üzrə konstruktiv fikir mübadiləsinin aparılması üçün iclasın yüksək səviyyədə təşkilinə görə sədr ölkə qismində Qazaxıstan tərəfinə təşəkkürünü ifadə edib. Müasir dünyanın çağırış və təhdidlərinə qarşı birgə fəaliyyətdə təhlükəsizlik məsələlərinin aktuallığının artığını qeyd edən nazir, bununla əlaqədar olaraq MDB çərçivəsində maraqlı tərəflər arasında müxtəlif səviyyələrdə məsləhətləşmələrin aparılmasının əhəmiyyətini qeyd edib.

(səh.2)

# ABŞ-dakı səfirliyimizin xidməti avtomobilinə atəş açılıb

İnsidentlər göstərir ki, erməni radikalları istifadə etdikləri bədnam terror taktikasını geri qaytarırlar



**Oktyabrın 10-dan 11-nə keçən gecə Azərbaycanın Vaşinqtondakı səfirliyinin xidməti avtomobilinə atəş açılıb.**

Baş vermiş hadisə ilə bağlı diplomatik nümayəndəliyik tərəfindən dərhal ABŞ-ın müvafiq qurumlarına məlumat verilib, kamera görüntüləri qarşı tərəfə təqdim edilib. Məsələ ilə əlaqədar ABŞ-ın ölkəmizdəki müvəqqəti işlər vəkili 12 oktyabr tarixində XİN-ə çağırılıb. Hadisə ilə bağlı ciddi narahatlığımız və narazılığımız ifadə edilib.

(səh.2)



## Ölkədə dərman qıtlığı yaranıb

Problem nə Ukrayna ilə, nə də Səhiyyə Nazirliyi ilə bağlıdır

**Bəzi dərman preparatlarının satışda olmaması narazılıq yaradıb. Bu məsələ hətta Milli Məclisdə də qaldırılıb.**

Millət vəkili Rüfət Quliyev parlamentin iclası başlayandan bir neçə həkim ona məlumat göndərib: "Bir aydan çoxdur ki, "Adrenalin" adında dərman yoxdur. Bu gün 10-larla cərrahiyyə əməliyyatı dayandırılıb. Hansısa işbazlar 1 manatlıq olan bu dərmanı 100-150 manata satırlar. İkincisi, qlükoza və hidrogen xlorofil fizioloji məhlul dərmanı tapılmır.

(səh.3)

## Ölən olmayıb

Son sutkada 68 nəfər koronavirusa yoluxub




**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına son sutkada 68 yeni yoluxma faktı qeydə alınıb, 129 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, ölən olmayıb.

İndiyədək ölkədə ümumilikdə 822 346 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 811 950 nəfər müalicə olunaraq sağalıb, hazırda 465 aktiv xəstə var. Bu günə qədər 9 931 nəfər vəfat edib.

*Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 2 518, bu günə qədər isə ümumilikdə 7 280 330 test icra olunub.*

## Laçında tarixi abidələrin ilkin inventarlaşdırılmasına başlanılıb



**Laçında tarix-memarlıq abidələrinin ilkin inventarlaşdırılma və monitorinq tədbirlərinə başlanılıb.**

Bu barədə Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən məlumat verilib.

İşlər Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Gəncə Regional İdarəsi tərəfindən aparılır.



## Ermənistana yenə zaman qazandırırlar

Yücel Karaüz: "Aİ-nin missiyasının Minsk Qrupundan heç bir fərqi olmayacaq"

(səh.3)



## "Əlbəttə yazıçının soğan, kartof kimi öz kitablarını piştaxta arxasında satması xoşagələn hal deyil"

Aqşin Yenisey: "Amma problemi ironiya, lağlağı ilə yox, daha fundamental şəkildə qabardıb həll etməliyik"

(səh.6)

# "Heydər Əliyev müasir Azərbaycan Ordusunun təməlini qoyub"

## Prezident İlham Əliyev: "Onun bizə vəsiyyətlərdən biri ərazi bütövlüyünün bərpası idi ki, bunu iki il əvvəl şərəflə yerinə yetirmişik"




**"Azərbaycan-Qırğızıstan qardaşlıq münasibətləri yeni dinamika, yeni stimul alacaq". Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Bişkekdə Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılış mərasimində bildirib. Dövlət başçısı deyib ki, bu gün yaşadığımız əlamətdar hadisələr xalqlarımızın yaddaşında uzun illər boyu dərin iz buraxacaq: "Bu əlamətdar hadisələr münasibətlərin xarakterini və ruhunu əks etdirir.**

Bu məktəbə Azərbaycanın görkəmli oğlu Heydər Əliyevin adının verilməsi qərarına görə Qırğızıstan Prezidentinə təşəkkürümü bildirirəm. Biz bunu xalqlarımız arasında dostluğun, qardaşlığın rəmzi, Heydər Əliyevin xatirəsinə ehtiram kimi dəyərləndiririk. Sadır Nurqojoyeviçin də qeyd etdiyi kimi, bu gün biz daha bir məktəbi, Azərbaycanın digər görkəmli oğlu, Azərbaycan xalqının fəxri olan şairi, mütəfəkkiri Nizami Gəncəvinin adını daşıyacaq məktəbi də ziyarət edəcəyik. Bu əlamətdar hadisələr qardaş ölkələrimiz arasında münasibətlərin xarakterini və ruhunu əks etdirir".

### "Heydər Əliyev tarixdə dərin iz buraxmış görkəmli şəxsiyyətdir"

Prezident vurğulayıb ki, Heydər Əliyev tarixdə dərin iz buraxmış görkəmli şəxsiyyətdir: "O, iş yerindən və ictimai-siyasi quruluş formasından asılı olmayaraq, həmişə Azərbaycanın maraqlarını müdafiə edib. Dövlət başçısı qeyd edib ki, Heydər Əliyev sovet dövründə Azərbaycanın rəhbəri olarkən respublikanı keçmiş SSRİ-də sosial-iqtisadi inkişaf göstəriciləri üzrə son yerlərdən qabaqcıllar sırasına çıxarmışdı. Eyni zamanda, istər SSRİ hökuməti sədrinin birinci müavini olduğu vaxtlarda, istərsə də xalqın onu gənc Azərbaycan Respublikasını iflasa uğramaqdan xilas etməyə çağıranda, ən çətin dövrdə Azərbaycan dövlətinə rəhbərlik edəndə ölkənin maraqlarını müdafiə edib.

### "Heydər Əliyevin qətiyyəti, xalqın ona inamı sayəsində Azərbaycan təhlükələrdən xilas oldu"

Dövlət başçısı qeyd edib ki, biz uçurum kənarında idik, qonşu ölkənin hərbi təcavüzü nəticəsində təkcə əraziləri itirmirdik, həm də hərc-mərclik və qardaş qırğını, vətəndaş müharibəsi faciəsi ilə üz-üzə idik. Ən ağır müharibənin vətəndaş müharibəsi olduğunu vurğulayan dövlət başçısı deyib ki, təəssüf ki, Azərbaycan xalqı bunun acısını çəkib: "Yalnız Heydər Əliyevin qətiyyəti və Azərbaycan xalqının ona inamı sayəsində o, qardaş qırğınını dayandırdı, Azərbaycanın iflasa sürüklənməsinin, gənc respublikamızın parçalanmasının qarşısını aldı, Azərbaycanı inkişaf yoluna qoydu, sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsinə, investisiyaların cəlbinə, müasir Azərbaycan Ordusunun təməlini qoymağa nail oldu".

Ölkə rəhbəri deyib ki, Azərbaycanın Heydər Əliyevin əsəri olduğunu deyəndə tamamilə haqlıyıq və onun yolu ilə gedirik: "Biz Heydər Əliyevin davamçılarıyıq. Əlbəttə, vəziyyətin spesifikası nəzərə alınmaqla, dəyişən dünya nəzərə alınmaqla, Azərbaycanın müasir imkanları nəzərə alınmaqla və qarşımızda duran çağırışlar nəzərə alınmaqla onun yolu ilə gedirik. Onun bizə qoyub getdiyi vəsiyyətlərdən biri ərazi bütövlüyünün bərpası idi ki, bunu iki il əvvəl şərəflə yerinə yetirmişik".

### "Heydər Əliyevi, onun orta təhsil haqqında şəhadətnaməsini nümunə göstərə bilərəm"

Prezident İlham Əliyev qırğızıstanlı məktəblilərə Heydər Əliyevin orta təhsil haqqında şəhadətnaməsini nümunə göstərib: "Təhsil gələcəyə yoldur. Bilik, təhsil o yoldur ki, sizə cəmiyyətdə layiqli yer tutmaq və dövlətinizin möhkəmləndirilməsinə töhfə vermək fürsəti yaradır. Yaxşı oxumaq üçün hər cür öyüd-nəsihətdənsə gənc nəslə örnək daha çox təsir göstərir. Mən Heydər Əliyevi, onun orta təhsil haqqında şəhadətnaməsini nümunə göstərə bilərəm. O, azərbaycanlı məktəblilər üçün örnəkdir. Orada bir dənə də olsun "dörd" yoxdur, bütün qiymətlər "beşdir". Mən bilmirəm, Qırğızıstanda hansı bal sistemi mövcuddur, Azərbaycanda o, dəyişdirilib. Lakin sovet dövründə "beş" ən yüksək qiymət idi".

### "Sanki Heydər Əliyev qabaqcadan görürdü ki, Azərbaycan müstəqil dövlətə çevriləcək və bizə ordu lazım olacaq"

Prezident bəyan edib ki, azərbaycanlıların müasir nəslinin tərbiyəsində Heydər Əliyevin rolu öz mənbəyini hələ sovet vaxtlarından götürür: "O vaxt Azərbaycan keçmiş SSRİ-də yeganə respublika idi ki, Heydər Əliyevin təkidi ilə minə yaxın azərbaycanlı gənc oğlan və qızı SSRİ-nin ali məktəblərinə göndərmək hüququ qazanmışdı. Bununla da kadr potensialı yaranırdı ki, bu gün Azərbaycanda ona tələbat olduqca çoxdur. Sizin diqqətinizə onu da çatdırmaq istəyirəm ki, Heydər Əliyev tərəfindən əsası qoyulan hərbi quruculuq işi də bu gün bizə öz ərazilərimizi uğurla müdafiə etmək imkanı verir. Məhz Heydər Əliyevin qərarı ilə 1970-ci illərdə Bakıda general Cəmşid Naxçıvanski adına hərbi məktəb yaradıldı. Bu, Heydər Əliyevin uzaqgörənliyi, gələcəyə istiqamətlənən fəaliyyətidir. Sanki o, qabaqcadan görürdü ki, Azərbaycan gözəl bir gündə müstəqil dövlətə çevriləcək, bizə ordu lazım olacaq, bizə mütəxəssislər lazım olacaq. Belə də oldu və biz hər bir situasiyaya hazır olmalıyıq".

Ölkə başçısı İlham Əliyev Heydər Əliyev və Nizami Gəncəvi adına məktəblərin müəllim və şagirdlərini Azərbaycana dəvət edib: "Mən Heydər Əliyevin xatirəsinə belə yanaşmaya görə bir daha Qırğızıstan Prezidentinə, qardaş qırğız xalqına təşəkkürümü bildirirəm. Heydər Əliyev adına və Nizami Gəncəvi adına məktəblərin müəllim və şagirdlərini Azərbaycana dəvət edirəm". Dövlət başçısı səfərlə bağlı müvafiq göstərişlər verdiyini qeyd edərək deyib: "Biz sizin səfərinizi, Bakıda, arzulasanız Azərbaycanın digər yerlərində qalmağınızı təşkil edəcəyik. Fikrimcə, bütövlükdə, bizim tədris müəssisələri ilə belə münasibətlərin, əlaqələrin yaradılması işlərinə artıq indi başlamaq lazımdır. Bu, bizim gəncləri əməkdaşlıq, qardaşlıq, dostluq ruhunda tərbiyə edəcək. Bu, bizi qarşılıqlı olaraq zənginləşdirəcək".

### "Ümidvaram ki, gələcəkdə bu məktəbdən Heydər Əliyev kimi şəxsiyyətlər çıxacaq"

Qırğızıstan Prezidenti Sadır Japarov deyib ki, Heydər Əliyevin çox zəngin siyasi və dövlətçilik təcrübəsi, xalqın mənafeyinin müdafiəsində qətiyyəti və prinsipiallığı, müdrikliyi və yüksək insani keyfiyyətləri haqlı olaraq ona Azərbaycanın hüdudlarından kənarda da hörmət qazandırıb. Prezident Sadır Japarov ümidvar olduğunu bildirib ki, gələcəkdə bu məktəbdən Heydər Əliyev kimi şəxsiyyətlər çıxacaq: "Heç bir şübhə yoxdur ki, bizim gənc soydaşlarımız qardaş xalqlarımız və ölkələrimiz arasında dostluq və əməkdaşlığın möhkəm körpüsünə çevriləcəklər". Qırğızıstan Prezidenti gənclərə gözəl təhsil, tərbiyə almağı, gərəkli olmağı, Qırğızıstan və Azərbaycan arasında dostluğun və əməkdaşlığın möhkəmləndirilməsi işinə öz töhfələrini verməyi arzulayaraq Heydər Əliyevin bu sözlərini xatırladıb: "Bizim cəmiyyətin gələcək tərəqqisi bu gün bizim gənclərimizə nəyi və necə öyrətməyimizdən çox asılı olacaq". Prezident Sadır Japarov əminliklə deyib ki, bu gözəl məktəbin divarları arasında uşaqlar keyfiyyətli təhsil, vətənpərvər və işinin peşəkarı kimi tərbiyə alacaqlar.

### "Heydər Əliyev adına məktəbin açılması ikitərəfli münasibətlərimizdə əlamətdar hadisədir"

Sadır Japarov bildirib ki, Qırğızıstanda Azərbaycanın Ulu Öndəri Heydər Əliyev adına məktəbin açılması ikitərəfli münasibətlərimizdə əlamətdar hadisədir: "Bu, xalqlarımızın möhkəm dostluğuna, ölkələrimiz arasında əsası dünya miqyaslı tarixi şəxsiyyət, Azərbaycanın Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyev tərəfindən qoyulmuş strateji əməkdaşlığa dəlalət edir". Qırğızıstan prezidenti vurğulayıb ki, məktəbə Heydər Əliyevin adının verilməsi onlar üçün böyük şərəfdir, çünki bu böyük şəxsiyyətdə təkcə Azərbaycan xalqının ümidləri və istəkləri cəmləşməyib. "Tutduğu vəzifədən asılı olmayaraq - respublika Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olarkən, yaxud da özünün kiçik Vətəni - Naxçıvanda olarkən Heydər Əliyev öz dövrünün görkəmli nümayəndəsi, incə və dərin düşünən mütəfəkkiri, böyük ürəkli insan olub".

**İsmayıl**



# İlham Əliyev Pakistanın Baş nazirini məlumatlandırıb

## "Ermənistan tərəfindən siyasi iradə nümayiş olunarsa, tezliklə sülh müqaviləsinin imzalana bilər"

**Oktyabrın 12-də Qazaxıstana işgüzar səfərə gələn Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Astanada Pakistan İslam Respublikasının Baş naziri Şahbaz Şəriflə görüşü olub.**

Prezident İlham Əliyev Səmərqənddəki görüşdən bir ay sonra Astanada keçirilən bu görüşün ölkələrimiz arasında əlaqələrin dinamikliyini bir daha göstərdiyini bildirdi.

Dövlətimizin başçısı ilə Səmərqənddəki görüşünü məmnunluqla xatırlayan Baş nazir Şahbaz Şərif Prezident İlham Əliyevi Pakistana səfərə dəvət etdi.

Azərbaycan Prezidenti Pakistana səfər etmək niyyətində olduğunu bildirdi və öz növbəsində Baş nazir Şahbaz Şərifi ölkəmizə səfərə dəvət etdi.

Pakistanın Baş naziri Azərbaycana məmnuniyyətlə səfər etmək niyyətində olduğunu dedi.

Şahbaz Şərif Pakistan xalqına göstərdiyi yardıma görə dövlətimizin başçısına təşəkkürünü ifadə etdi və ölkəsinin baş vermiş selin nəticələrindən hələ də əziyyət çəkdiyini bildirdi.

Baş nazir Şahbaz Şərif keçmiş Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar Pakistanın hər zaman Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini davamlı şəkildə dəstəklədiyini qeyd etdi.

Dövlətimizin başçısı Pakistanın mövqeyinə görə təşəkkürünü bildirdi, Azərbaycanın da Cəmmu və Kəşmir məsələsində Pakistanın haqlı mövqeyini daim dəstəklədiyini vurğuladı.

Baş nazir Şahbaz Şərif Azərbaycanın bu ədalətli mövqeyinə görə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Ermənistanla Azərbaycan arasında münasibətlərin normallaşdırılması və sülh müqaviləsinin imzalanması üzrə ölkəmizin təkliflərini diqqətə çatdırdı. Prezident İlham Əliyev qeyd etdi ki, əgər Ermənistan tərəfindən siyasi iradə nümayiş olunarsa, tezliklə sülh müqaviləsinin imzalana bilər.

Görüş əsnasında Azərbaycan-Pakistan-Türkiyə üçtərəfli əməkdaşlığının önəmi vurğulandı. Bu çərçivədə əlaqələrin daha da genişləndirilməsinin əhəmiyyəti qeyd olundu.

Eyni zamanda, ölkələrimiz arasında hərbi-texniki, ticarət, enerji, kənd təsərrüfatı, nəqliyyat-logistika sahələrində əməkdaşlığın dərinləşdirilməsi məsələlərinə toxunuldu və bu istiqamətdə müzakirələr aparıldı.

# ABŞ-da səfirliyimizin xidməti avtomobilinə atəş açılıb

## İnsidentlər göstərir ki, erməni radikalları istifadə etdikləri bədnam terror taktikasını geri qaytarırlar






**Oktyabrın 10-dan 11-nə keçən gecə Azərbaycanın Vaşinqtondakı səfirliyinin xidməti avtomobilinə atəş açılıb. Baş vermiş hadisə ilə bağlı diplomatik nümayəndəliyik tərəfindən dərhal ABŞ-ın müvafiq qurumlarına məlumat verilib, kamera görüntüləri qarşı tərəfə təqdim edilib. Məsələ ilə əlaqədar ABŞ-ın ölkəmizdəki müvəqqəti işlər vəkili 12 oktyabr tarixində XİN-ə çağırılıb. Hadisə ilə bağlı ciddi narahatlığımız və narazılığımız ifadə edilib.**

Azərbaycan diplomatik nümayəndəliyinin təhlükəsizliyinin təmin edilməsi tələbi qarşı tərəfin diqqətinə çatdırılıb. Son zamanlar xarici ölkələrdəki erməni icmalarının radikal üzvləri tərəfindən Azərbaycanın diplomatik nümayəndəliklərinə qarşı hücumların sistemli xarakter daşıması, o cümlədən Vaşınqton, Paris, Beyrut və digər şəhərlərdə səfirliklərimizə qarşı törədilən hücumlar və vandallıq aktları ciddi narahatlıq doğurur. Xarici ölkələrdəki diplomatik nümayəndəliklərimizin təhlükəsizliyinin təmin edilməsi ev sahibi ölkəsinin beynəlxalq konvensiya ilə üzərinə götürdüyü öhdəliyidir. Bununla bağlı olaraq, baş vermiş hər bir insidentlə bağlı müvafiq araşdırmanın aparılması və səfirliklərimizin, eləcə də diplomatlarımızın təhlükəsizliyinin lazımi səviyyədə təmin edilməsi tələbini bir daha vurğulayırıq. Xatırladırıq ki, Ermənistan 1991-ci ildə müstəqilliyini bəyan etdikdən sonra Azərbaycana qarşı ərazi iddialarını həyata keçirmək məqsədi ilə terroru dövlət siyasəti vasitəsinə çevirib. Azərbaycanın ərazilərinin işğalı prosesində ölkəmizin müxtəlif yerlərində terror vasitələrindən geniş istifadə edib. Habelə Bakı şəhərində terror aktları törədiblər. Məlum olduğu kimi, dünyanın müxtəlif ölkələrində çalışan 24 türk diplomatı erməni terrorunun qurbanı olub. Nə son günlərdə baş vermiş hücumlar, nə də hələ 2020-ci ildə Avropa paytaxtlarında, habelə Los-Anceles şəhərində Azərbaycan diplomatik nümayəndəliklərinə, həmçinin azərbaycanlı icma üzvlərinə qarşı edilən hücumlarla bağlı açılan cinayət işləri çərçivəsində heç bir təqsirkar məsuliyyətə cəlb edilməyib. Məhz bu cəzasızlıq radikal erməni qruplarını yeni təxribatlara əl atmağa cəsarətləndirir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) İdarə Heyətinin sədri Fərid Şəfiyev "Twitter" hesabında yazıb ki, Azərbaycan diplomatik korpusuna qarşı baş verən insidentlər göstərir ki, erməni radikalları istifadə etdikləri bədnam terror taktikasını geri qaytarırlar. O qeyd edib ki, türk diplomatlarına qarşı 1970-80-ci illərdə və azərbaycanlı mülki vətəndaşlara qarşı 1988-94-cü illərdə törədilən bu cür terror aktları qəti şəkildə pislənmədiyi üçün erməni radikallar cəzasızlıqdan istifadə edirlər.

Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli "Şərq"ə bildirib ki, Vyana Konvensiyasına əsasən, beynəlxalq münasibətlərin təməl prinsiplərindən ən mühümü dövlətin diplomatik missiyasının və diplomatların təhlükəsizliyinin tam təmin edilməsindən ibarətdir. Partiya rəsmisinin sözlərinə görə, Azərbaycan tərəfi radikal erməni qüvvələrinin törətdiyi vandalizm aktlarının aidiyyəti dövlətlərin hüquq-mühafizə orqanları tərəfindən araşdırılmasını, cinayət əməllərinə hüquqi qiymət verilməsini qətiyyətlə tələb etməlidir: "Həmin ölkələrin hüquq-mühafizə orqanları, səfirliklərimizin qorunmasına məsul qurumlar da diqqətdən kənarda qalmamalıdır. Niyə xarici ölkələrdəki səfirliklərimizə erməni lobbisinin nümayəndələri rahatlıqla daxil olaraq vandalizm aktı törədə bilirlər? Bakıda hər hansı bir ölkənin səfirlik binasına qeyri-qanuni daxil olmaq, təxribata cəhd göstərmək qeyri-mümkündür. Ölkəmizdə ABŞ, Böyük Britaniya, Fransa və digər ölkələrin səfirliklərinin qorunması Azərbaycan polisi tərəfindən ciddi şəkildə həyata keçirilir. Xüsusən, Fransa hüquq-mühafizə orqanlarının erməni təxribatının qarşısının alınmasına ciddi yanaşmaması, hesab edirəm ki, bu ölkənin ermənipərəst mövqedə olduğunun aydın ifadəsidir. Başa düşməliyik ki, hər bir ölkənin öz siyasi mühiti mövcuddur və buna uyğun olaraq zəruri tədbirlər görülməlidir".

**İsmayıl Qocayev**

# "Erməni hərbçiləri Azərbaycan ərazilərindən tam çıxarılmayıb"

## Ceyhun Baramov MDB Xarici İşlər Nazirləri Şurasının iclasında iştirak edib

*(Əvvəli səh: 2-də)*

**Nazir xüsusilə, ölkələr arasında etimad və qarşılıqlı analayışın möhkəmləndirilməsində ənənəvi olaraq təsirli vasitələrdən olan humanitar sahədə əməkdaşlığın əhəmiyyətini vurğulayıb.**

Nazir Ceyhun Bayramov iclas iştirakçılarını 44 günlük müharibə sonrası bölgədə yaranan yeni reallıqlar fonunda cari vəziyyət barədə, o cümlədən Azərbaycan və Ermənistan arasında sülh prosesinin irəlilədilməsi ilə bağlı məsələlərlə bağlı məlumatlandırıb. O, münaqişənin bitməsinin, iqtisadi və kommunikasya əlaqələrinin bərpası yolu ilə bölgədə uzunmüddətli sülh və sabitliyiə nail olmaq üçün yeni imkanlar yaratdığını bildirib. Xüsusilə, bölgədə tranzit imkanlarının artırılması və ümumilikdə sərmayə mühitinin möhkəmləndirilməsinə xidmət edəcək Zəngəzur dəhlizinin açılışından sonra bölgənin əhəmiyyətinin artacağı diqqətə çatdırılıb. Nazir, azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən genişmiqyaslı quruculuq işlərindən, məcburi köçkünlərin öz evlərinə geri dönüşünü təmin etmək üçün görülən fəal işlərdən bəhs edib. Qısa müddət ərzində görülən işlərin miqyasının Azərbaycanın azad olunmuş torpaqları bərpa və inkişaf etdirmək qətiyyətini nümayiş etdirdiyi və bunun da öz növbəsində, bölgənin münaqişə sonrası sabitliyinə ciddi töhfə verəcəyi iclas iştirakçılarının nəzərinə çatdırılıb.

Çıxış zamanı, həmçinin Ermənistan tərəfindən hələ də üçtərəfli bəyanatların tam icra edilmədiyi, erməni hərbçilərinin Azərbaycan ərazilərindən tam çıxarılmadığı iclas iştirakçılarının diqqətinə çatdırılıb. Habelə, Ermənistan tərəfindən təxribatların davam etdirildiyi qeyd edilib, o cümlədən 13-14 oktyabr tarixlərində sərhəd zonasında Azərbaycan qüvvələrinin təminat yollarının minalanması cəhdi ilə başlanan növbəti hərbi təxribatın çoxsaylı insan itkisinə səbəb olduğu vurğulanıb.

Ermənistanın bu hərəkətlərinin bölgədə sülh və sabitliyin təmin olunması səylərinə xələl gətirdiyi diqqətə çatdırılıb. Nazir, Azərbaycan Respublikasının münasibətlərin normallaşması və danışıqlar prosesinin irəli aparılması istiqamətində Ermənistan tərəfindən real addımların atılmasını gözlədiyini və ölkəmizin bu xüsusda səylərini davam etdirməyə qətiyyətli olduğunu bəyan edib.



# Ərzincanda Beynəlxalq Türk Dünyası Simpoziumu gerçəkləşib





## Toplantının əsas məqsədi bir çox sahələrdə elmi tədqiqatlar üçün türk dünyasının ortaq platformasını yaratmaqdır

**Türkiyənin Ərzincan şəhərində Beynəlxalq Türk Dünyası Simpoziumu keçirilir. Simpozium Türk Dövlətləri Təşkilatının Ağsaqqallar Şurasının rəhbəri Binəli Yıldırımın və Türkiyə Cümhuriyyəti Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi, Ərzincan Binəli Yıldırım Universitetinin ev sahibliyi ilə gerçəkləşir.**

Simpoziumun əsas məqsədi bir çox sahələrdə elmi tədqiqatlar üçün türk dünyasının ortaq platformasını yaratmaqdır. Səfər oktyabrın 13-də başa çatacaq. Beynəlxalq simpoziumda Azərbaycandan olan deputatlar, elm adamları və ictimaiyyət nümayəndələri də iştirak edirlər. Onlar müxtəlif mövzularda məruzələrlə çıxış edəcəklər.

Türkiyədə keçirilən beynəlxalq türk dünyası simpoziumunda "Azərbaycan milli mətbuatı və H.B.Zərdabi fenomeni" mövzusunda çıxış edən Əməkdar jurnalist, professor Qulu Məhərrəmli bildirib ki, Azərbaycan tarix boyu türk milli şüurunun formalaşmasında çox böyük rol oynayıb. Professorun sözlərinə görə, son zamanlar türk dövlətləri, eləcə də türkdilli xalqlar arasında oyanış var: "Türk Dövlətləri Təşkilatının yaradılması böyük bir hadisədir. Bu cür tədbirlərin keçirilməsi isə bu birliyin sözdə deyil, artıq konkret addımlarla əməldə də icra olunduğunu göstərir. Hazırda iştirak etdiyimiz simpozium elmi, ictimai, siyasi, mədəni və humanitar əlaqələrin genişlənməsinə kömək edir. Demək olar ki, bu tədbirdə Türkiyədən sonra Azərbaycan aparıcı qüvvədir. Panellərin və məruzələrin böyük əksəriyyəti Azərbaycanın tarixini, mədəniyyətini və bir çox digər sahələrini əhatə edir. Hiss olunur ki, Azərbaycana böyük maraq var. Bunun səbəbi isə bəllidir. Azərbaycan bu oyanışda öndə gedir. Tarix boyu ölkəmiz Türkiyə ilə yanaşı türk milli şüurunun formalaşmasında çox böyük rol oynayıb. Görkəmli tarixi şəxsiyyətlərimizin türk düşüncəsinin formalaşmasına göstərdiyi xidmətlər sanki indi öz bəhrəsini verir. Türk dövlətlərinin birliyinin bölgədə sülhə, əmin-amanlığa, əməkdaşlığa xidmət etməsi çox böyük hadisədir. Bütövlükdə götürəndə hesab edirəm ki, türk xalqları arasında əlaqənin sıxlaşmasında və möhkəmlənməsində bu cür toplantılar böyük əhəmiyyət daşıyır. Xalqlar bir-birinin tarixini, mədəniyyətini, dilini, ədəbiyyatını, incəsənətini daha yaxından tanıyır". Məlumat üçün bildirək ki, Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri, tarix üzrə fəlsəfə doktoru, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı da beynəlxalq türk dünyası simpoziumuna qatılıb. A.Aşırlı konfransda "Türkiyənin İstiqlal Hərəkatı Azərbaycan mətbuatı səhifələrində 1919-1923" mövzusunda məruzə ilə çıxış edib.

**Mühüm tədbirlə bağlı "Şərq"ə danışan türkoloq-alim Faiq Ələkbərli bildirib ki, bütün hallarda türk dünyası, birliyi adı altında belə simpoziumların keçirilməsi təqdirəlayiqdir. Alim vurğulayıb ki, belə konfranslar adətən türk dünyasının bütün sahələrini özündə ehtiva edir:** "Simpoziuma qatılan elm adamları, siyasi-ictimai xadimlər müxtəlif mövzularda elmi məruzələr edirlər. Belə tədbirlər elmi tədqiqatlar üçün ortaq platforma yaradılmasına xidmət göstərir. Həm də Türk Dövlətləri Təşkilatının daha ciddi quruma, aktiv təşkilata çevrilməsinə yardımçı olur. Türk dünyasını təmsil edən elm adamları üçün bu cür simpoziumların təşkili böyük əhəmiyyət kəsb edir."

**İsmayıl Qocayev**

# Ermənistana yenə zaman qazandırırlar

## Yücel Karaüz: "Aİ-nin missiyasının Minsk Qrupundan heç bir fərqi olmayacaq"



***"İndiki dövrdə Azərbaycan-Ermənistan sərhədlərinə beynəlxalq missiya göndərmək istəyənlərin hədəfi məsələnin həlli deyil"***

**Rəsmi Moskva Avropa İttifaqının Ermənistan-Azərbaycan sərhədinə mülki missiya göndərməsinə qarşıdır. Bunu Rusiya Xairici İşlər Nazirliyinin səlahiyyətli nümayəndəsi Mariya Zaxarova ötən gün keçirdiyi brifinqdə bildirib.**

XİN rəsmisi Avropa İttifaqına üzv ölkələrin səfirlərinin Ermənistana mülki missiya göndərmək qərarına etiraz edərək, bu addımın Rusiyanın vasitəçilik səylərinə qarşı yönəldiyini söyləyib: "Biz Avropa İttifaqının mülki missiyasına təəssüflər olsun ki, bu təşkilatın Bakı ilə İrəvan arasında münasibətlərin nizamlanmasına mane olmaq, Rusiyanın vasitəçilik səylərini məhdudlaşdırmaq cəhdi kimi baxırıq". Ekspertlərin fikrincə, Bakı ilə İrəvanın barışmasının, regionda dayanıqlı sülhün və uzunmüddətli sabitliyin bərqərar olmasının yeganə yolu Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatlarının tam şəkildə həyata keçirilməsidir. Burada əsas məsələ Qərb-Rusiya arasındakı mövcud qarşıdurmadır. Azərbaycan-Ermənistan məsələsində Rusiyanın Qərbdən bəzi istəkləri var. Rusiya indiki mərhələdə beynəlxalq qurumlar tərəfindən müzakirə olunan mövzuların çoxundan təcrid edilib. Digər yandan rəsmi Bakı Minsk Qrupundan imtina edib. Rusiya regiondakı proseslərdən tamamilə izolyasiya olmaq istəmir. Regionda həyata keçiriləcək proseslərdə Qərbin onunla birgə hərəkət etməsini tələb edir. Yəni Moskva düşünür ki, bölgədə iş görmək istəyən ölkə onunla əməkdaşlıq etməyə məcburdur.

**Türkiyənin Azərbaycandakı səfirliyinin keçmiş hərbi attaşesi, təqaüddə olan general-mayor Yücel Karaüz "Şərq"ə açıqlamasında bildirib ki, əvvəlki təcrübələrdən bəllidir ki, 30 il ərzində bölgəyə göndərilmiş beynəlxalq missiyalar heç bir problemin həllində müsbət nəticə əldə etməyib. General deyib ki, Qərbin proseslərə "burun soxma" metodu göstərir ki, onların məqsədi Cənubi Qafqazdakı problemləri çözmək deyil:** "İddia edildiyi və çoxlarının inandığı kimi Qərb bölgəyə sülh, əmin-amanlıq, iqtisadi inkişaf gətirmir. İndiki dövrdə Azərbaycan-Ermənistan sərhədlərinə beynəlxalq missiya göndərmək istəyənlərin hədəfi məsələnin həlli deyil. Əksinə, problemin ömrünü uzatmaq, Ermənistana zaman qazandırmaqdır. Ən əsası isə bölgədə mövcud olduqlarını hiss etdirmək, Türkiyə, Rusiya və İranı bloklamaq, bu dövlətləri nəzarət altında saxlamaqdır. Ona görə də Qərbin səmimiyyətinə inanmaq çətindir. Bu missiyanın fəaliyyətsiz və uğursuz ATƏT-in Minsk Qrupundan heç bir fərqi olmayacaq".

**İsmayıl Qocayev**



# Birgə təlimlərdə Gürcüstan da maraqlıdır

## Bu ölkənin Azərbaycan və Türkiyə ilə hərbi sahədə əməkdaşlığı daha da genişlənəcək

**"Azərbaycan, Türkiyə və Gürcüstan arasında mütəmadi olaraq hərbi əməkdaşlıq çərçivəsində təlimlər keçirilir".**

**Bunu "Şərq"ə açıqlamasında ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib.**

Onun sözlərinə görə, müdafiə nazirinin birinci müavini, Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev sentyabrın 28-də Gürcüstanda səfərdə olub: "O, Gürcüstanın Müdafiə Qüvvələrinin komandanı, general-mayor Giorgi Matiaşvili ilə görüşdə Azərbaycan, Türkiyə və Gürcüstan hərbçilərinin iştirakı ilə keçiriləcək "Qafqaz Qartalı-2022" xüsusi təyinatlı bölmələrin birgə təliminə hazırlıq, həmçinin gələn il ərzində keçirilməsi nəzərdə tutulan "Eternity-2023" kompüter dəstəkli komanda-qərargah təlimi və "Qafqaz Qartalı-2023" birgə təliminin yüksək səviyyədə təşkili barədə müzakirələr aparmışdı. İndi isə birgə təlimlərin gerçəkləşdirilməsi önəmli addımdır".

**Ş.Ramaldanov qeyd edib ki, Gürcüstan, Azərbaycan və Türkiyənin hərbi sahədə əməkdaşlığı daha geniş olacaq:** "Enerji resursları məhz Azərbaycandan Gürcüstana, ordan da Türkiyəyə ötürülür. Bədnam qonşularımız - Ermənistanın mövqeyini, eləcə də Tovuz rayonunun strateji əhəmiyyətini nəzərə alsaq, kəmərin təhlükəsizliyini təmin etmək üçün birgə fəaliyyət göstərilməlidir. Antiterror əməliyyatı aparmaqdan ötrü birgə təlimlər keçirilməlidir.

Bu təlimlər Gürcüstana da maraqlıdır. Azərbaycan XTQ-ləri qələbə qazanan ordunun nümayəndələridir. Həm Türkiyə PKK ilə mübarizədə, həm də Azərbaycan XTQ-ləri savaşlar zamanı təcrübə əldə edib. Həmin təlimlər vasitəsilə müvafiq təcrübə mübadiləsi aparılır".

*Qeyd edək ki, Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlı qüvvələrinin "Qafqaz Qartalı-2022" adlı birgə təlimləri başlayıb. Azərbaycan, Türkiyə və Gürcüstan xüsusi təyinatlılarının iştirak etdiyi "Qafqaz Qartalı" adlı birgə təlimlər hər il təşkil olunur.*

**Aygün Tahir**

# Ölkədə dərman qıtlığı yaranıb

## Problem nə Ukrayna ilə, nə də Səhiyyə Nazirliyi ilə bağlıdır

**Bəzi dərman preparatlarının satışda olmaması narazılıq yaradıb. Bu məsələ hətta Milli Məclisdə də qaldırılıb. Millət vəkili Rüfət Quliyev parlamentin iclası başlayandan bir neçə həkim ona məlumat göndərib: "Bir aydan çoxdur ki, "Adrenalin" adında dərman yoxdur. Bu gün 10-larla cərrahiyyə əməliyyatı dayandırılıb. Hansısa işbazlar 1 manatlıq olan bu dərmanı 100-150 manata satırlar. İkincisi, qlükoza və hidrogen xlorofil fizioloji məhlul dərmanı tapılmır.**

Çünki bunlar ölkəmizə Ukraynadan gəlir. Digər tərəfdən, bu dərmanlar Türkiyədə rahat satılır. Bizim bir ay əvvəl fikrimiz var idi ki, Türkiyədə satılan dərmanları Azərbaycana da gətirək. Bu problem təcili aradan qaldırılmalıdır. "Adrenalin" dərmanına görə bu gün həkimlər cərrahi əməliyyat həyata keçirə bilmir. Bu problemin həllini uzatmaq lazım deyil".

Milli Məclisin Səhiyyə komitəsinin sədr müavini Rəşad Mahmudov da problemin mövcudluğunu təsdiqləyib: "Ölkə üzrə bəzi dərman preparatlarının çatışmazlığı ilə üzləşirik. Bunun səbəbi Rusiya-Ukrayna müharibəsidir. Bu problemlər nəinki bizim ölkədə, MDB məkanında bütün ölkələrdə yaşanır. Bir ay içərisində Rusiya və Ukraynadan gəlməyən dərmanların Türkiyədən gətirilməsi asan deyil. Çünki dərmanların xarici ölkədən gətirilməsi və lisenziyalaşdırılması məsələsi yenə də mürəkkəb olaraq qalır. Səhiyyə komitəsində bu problemin həlli istiqamətində bürokratik əngəllərin aradan qaldırılması, belə təcili vəziyyətlərdə ayrıca qanunların ortaya qoyulmasına böyük ehtiyac olmasını müzakirə etmişik. Bu gün problemin qarşısı qısa zamanda alınmalıdır".

Milli Məclisdə qaldırılan problemə reaksiya verən Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən isə bildirilib ki, "Adrenalin - Zdorovye", "Adrenalin -Darnitsa", "Penepin" və "Penepin Jr" (sonuncu ikisi də adrenalin tərkibli dərmanlardır) Mərkəz tərəfindən dövlət qeydiyyatına alınıb. Bu o deməkdir ki, istənilən şirkət bu dərmanları maneəsiz olaraq ölkəyə gətirə bilər: "Və bizim laboratoriyada ekspertizadan keçdikdən sonra, ölkə ərazisində satışına icazə verilməsi üçün heç bir maneə yoxdur. O ki qaldı "niyə apteklərdə yoxdur və niyə gətirilmir" sualına, bu məsələ nə Səhiyyə Nazirliyi, nə də Analitik Ekspertiza Mərkəzinin səlahiyyətinə aid məsələ deyil. Bu dərmanları ölkəyə özəl şirkətlər gətirir".

Adrenalin tərkibli dərmanların ardınca apteklərdə "Nurofen" (xüsusilə uşaqlar üçün olan) dərmanı da qəhətə çıxıb. Sosial şəbəkə istifadəçiləri "Nurofen"in tapılmadığını yazıb.

Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzindən APA-nın sorğusuna cavab olaraq bildirilib ki, "Nurofen"in həm kapsul, həm suspenziya, həm də həblərinin idxalı üçün sentyabrın 22-23-də müraciət olunub: "Bu, onu deməyə əsas verir ki, problem yaxın zamanda həll olunacaq". Mərkəz eyni zamanda qeyd edib ki, apteklərin dərman vasitələri ilə təminatı nə Səhiyyə Nazirliyi, nə də Analitik Ekspertiza Mərkəzinin səlahiyyətlərinə aiddir: "Ölkəyə dərman vasitələrinin idxalı, gətirilməsi özəl idxalçı şirkətlər tərəfindən həyata keçirilir. Odur ki, problemin hansı ölkə ilə bağlı olduğu barədə heç bir şərh verə bilmərik". Ümumi olaraq bildirilib ki, Dərman Vasitələrinin Dövlət Reyestrində 5567 adda dərman vasitəsi qeydiyyatdan keçib. Əsasən Avropa ölkələrindən, Türkiyə, Rusiya, Ukrayna, Hindistan və s. ölkələrdən dərman vasitələri idxal olunur.




***"Məsələ ondadır ki, ölkənin dərman bazarının 96 faiz idxaldan asılı olması vəziyyəti daha da çətinləşdirir"***

**Yaranmış problemlə bağlı "Şərq"ə danışan iqtisadçı Natiq Cəfərli adıçəkilən dərman preparatlarının qıtlığının Rusiya-Ukrayna müharibəsiylə əlaqəli olmadığını dedi:**

- Bəli, dərman preparatlarının ölkəyə gətirilməsində problem yaşanır, logistika məsələləri çətinləşib. Lakin bu, nə Ukrayna ilə bağlıdır, nə də Səhiyyə Nazirliyi ilə. Ukrayna dərman preparatlarının ixracından 8 aydır kənardadır. SN isə dərman gətirən deyil. Yaranmış problem, məncə, dərman preparatlarının idxalı ilə məşğul olan şirkətlərlə daha çox bağlıdır. Əsas məsələ də dərmanların qiymətidir. Hazırda dərmanları əvvəlki - köhnə qiymətlərlə ölkəyə gətirmək idxalçı şirkətlərə sərf etmir. Onlar gözləyir ki, Tarif Şurası məsələyə baxsın, qiymətlərdə dəyişiklik edilsin, yeni qiymətlərlə idxala başlasınlar. Problem idxalçı şirkətlərlə bağlıdır.

N.Cəfərli qeyd etdi ki, ölkənin dərman bazarının 96 faiz idxaldan asılı olması vəziyyəti daha da çətinləşdirir: - Ölkədə tibbi ləvazimatların istehsal həcmi cəmi 4 faizdir. Bu da gündəlik istifadə olunan pambıq, tibbi maska, tibbi spirt kimi gündəlik istifadə edilən bir-iki tibbi ləvazimatdır. Ölkədə dərman istehsalı sıfır həddindədir deyə, idxaldan asılılıq çox böyükdür və nəticədə gördüyümüz kimi bu cür ciddi problemlər yaranır.

*Qeyd edək ki, pediatr Vaqif Qarayev də dərman preparatlarının qıtlığı məsələsinə toxunub: "Son günlər yodla bağlı da ajiotaj var. Tapılmır. Adrenalin adlı preparat da tapılmır. Təkcə bunlar yox, xroniki xəstələrin illərlə qəbul etdiyi preparatlar ya tapılmır, ya da baha qiymətə satılır. Dünyanın əksər ölkələri Azərbaycana dərman ixrac edir, əksəriyyəti də keyfiyyətsiz. Hətta Argentina da. Argentina Messi ixrac edə bilər, onun dərmanla nə işi var?!. Özümüz dərman istehsalına başlamasaq problemlər qaçılmaz olacaq. Pandemiya, müharibə dərman ixracına çox pis təsir edir. Ona görə özümüz istehsal etməliyik!*

**Məlahət Rzayeva**

# İmzalar atıldı

## MEDİA ilə Mətbuat Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb





### *"İki qurumun əməkdaşlıq edəcəyi və bir mövqedən mətbuatın inkişafına töhfə verə biləcəkləri ortaq sahələr var"*

**Medianın İnkişafı Agentliyi ilə Mətbuat Şurası arasında əməkdaşlıq memorandumu imzalanıb. Memorandumu MEDİA-nın icraçı direktoru Əhməd İsmayılov və Mətbuat Şurasının sədri Rəşad Məcid imzalayıblar.**

Sənədin imzalanmasında məqsəd MEDİA və Mətbuat Şurası arasında müştərək layihələrin reallaşdırılması istiqamətində səmərəli və faydalı əməkdaşlıq münasibətlərinin qurulmasıdır. Həmçinin, informasiya mühitinin şəffaflaşdırılması, jurnalistlərin peşəkarlığının və cəmiyyətin media savadlılığının artırılması, etik davranış qaydalarının tətbiqi sahəsində proseslərin stimullaşdırılması və bu məqsədlə digər fəaliyyətlərin koordinasiya edilməsidir. Sənədə əsasən, cəmiyyətdə media savadlılığının artırılması sahəsində birgə layihələrin icrası, jurnalistlərin informasiya almaq hüququnun təmin edilməsi istiqamətində imkanların genişləndirilməsidir. Eyni zamanda, mediada dərc olunan və ya yayımlanan informasiyanın məzmununa dair hüquqi tələblərin, həmçinin Azərbaycan jurnalistlərinin etik davranış qaydalarının tətbiqi istiqamətində maarifləndirici tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub. Əməkdaşlıq memorandumu Azərbaycan mediasının beynəlxalq əməkdaşlıq perspektivlərinin artırılmasını, xarici təcrübənin tətbiqi imkanlarının araşdırılması məqsədilə tədbirlər görülməsini, bu istiqamətdə birgə layihələr, konfranslar, təlimlər və seminarların təşkilini əhatə edir.

**Memorandumla bağlı ”Şərq”ə danışan Mətbuat Şurası İdarə Heyətinin üzvü Müşfiq Ələsgərli deyib ki, hər iki qurum media üzrə ixtisaslaşmış təşkilatlar olsa da, həm MEDİA-nın, həm də Mətbuat Şurasının konkret məşğul olduğu sahələr mövcuddur. Ancaq M.Ələsgərli bildirib ki, iki qurumun əməkdaşlıq edəcəyi və bir mövqedən mətbuatın inkişafına töhfə verə biləcəkləri ortaq sahələr də var:** ”Məsələn, ölkədə media savadlığının artırılması hər iki qurum üçün uyğun fəaliyyət istiqamətidir. Yaxud jurnalistlərin peşəkarlığının artırılması, media mühitinin saflaşdırılması da MEDİA və Mətbuat Şurasının vahid çıxış edə biləcəkləri sahələrdir. Jurnalistlərin peşəkarlığının artırılması çox mühüm məsələdir. Eyni zamanda etik-davranış qaydalarına riayət olunması ümumi mediamız üçün faydalıdır. Hər iki qurum bu sahələrə mühüm töhfələr verə bilərlər. Birgə əməkdaşlığın mümkün olduğu sahələr müəyyən edilərək qurumlar arasında imzalanmış memorandumda öz əksini tapıb. Hesab edirik ki, çox mühüm addımdır”.

**İsmayıl Qocayev**



# Avroparlamentdə ermənilərə tərs şillə vuruldu

## Brüssel yeni proseslərdə məhz rəsmi Bakının mövqeyi ilə razılaşdığını qeyd etdi

**“Avroparlamentdə Azərbaycan və Ermənistan arasındakı proseslərlə bağlı ermənillərə tərs şillə vurdular”. Bunu Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov deyib.**

Ekspert bildirib ki, heç bir sanksiyadan və enerjiyə embarqodan söhbət gedə bilməz: ”Zəngəzurla bağlı məsələni çıxmaq şərti ilə bütün istiqamətlərdə Brüssel yeni proseslərdə məhz rəsmi Bakının mövqeyi ilə razılaşdığını qeyd etdi. Zəngəzura dəhliz statusunun verilməməsi Laçın koridorunun statusuna da yenidən baxılmanı gündəmə gətirəcək. Dinləmələrdə Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsinin Toivo Klaarın mövqeyi belə oldu: ”Minsk Qrupu leqal şəkildə fəaliyyət göstərir. Lakin Azərbaycan bu formatı aktual hesab etmir. Əsas odur ki, beynəlxalq birlik Azərbaycana və Ermənistana sülhə yaxınlaşmağa kömək edir”. Göründüyü kimi, Minsk Qrupunun artıq işlək format olmaması, onun yerinə Brüssel platforması Toivo Klaar tərəfindən qəbul olunur. Klaarın digər ifadəsi isə belədir: ”1990-cı illərdəki Qarabağ müharibəsi zamanı minlərlə azərbaycanlı itkin düşdü. Bu məsələ həllini tapmalıdır”. Məlumdur ki, azərbaycanlı itkin düşmüşlər məsələsi müharibədən sonra ilk dəfə Prezident İlham Əliyev tərəfindən məhz Aİ platforması çərçivəsində səsləndirilib. 2021 -ci ilin dekabr ayında Brüsseldə Şarl Mişelin iştirakı ilə üçtərəfli, bu ilin fevral ayında onlayn formatda Makronun iştirakı ilə dördtərəfli görüşdə bu məsələ qəbul edilib. Hətta həmin vaxt Aİ-nin üzərinə itkin düşmüşlərin tapılması ilə bağlı missiya da qoyulmuşdu. Təsadüfi deyil ki, Ermənistandakı ekspertlər Toivo Klaarın azərbaycanlı itkin düşmüşlərlə bağlı bəyanatını kəskin tənqid edirlər”.

Z.Məmmədova görə, Aİ rəsmisi ”Qarabağdakı ermənilərin hüquq və təhlükəsizlikləri yerinə yetirilməlidir” deməklə də göstərir ki, Aİ Qarabağ ermənilərinin öz müqqədəratını təyin etmə hüququ ifadəsindən istifadə etmir: ”Əvəzində hazırda danışıqlarda qəbul edilən formulalardan bəhs olunur. Bu isə o deməkdir ki, Aİ Azərbaycan kimi Xankəndidəki qondarma institutların ləğv edilməsinin tərəfdarıdır. Ən əsası isə Qarabağın dağlıq hissəsinin Azərbaycan ərazisi olduğunu qəbul edir. 13-14 sentyabr tarixlərində baş vermiş döyüşlərlə bağlı ”işğal” deyil, əraziyə daxil olma ifadəsi işlədildi. Beləliklə, bəzi avroparlamentarilərin və Ermənistanın arzuları növbəti dəfə puç oldu”.

**İsmayıl**



# Plan maraqlara, hədəflərə uyğundur

## ”Qazaxıstan da Türkiyə ilə Azərbaycanın birgə hərbi təlimlərinə qoşulur”

**Müstəqil Dövlətlər Birliyi (MDB) iştirakçı dövlətlərinin Silahlı Qüvvələrinin Qərargah Rəisləri Komitəsinin Bakıda keçirilən növbəti iclası baş tutub. İclasda Azərbaycan Respublikası müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi, general-polkovnik Kərim Vəliyev Qazaxıstan Respublikası müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-leytenant Marat Xusainov ilə görüşüb.**

General-polkovnik K.Vəliyev hər iki ölkənin orduları arasında əməkdaşlığın inkişaf etdiyini və bu inkişafın cari ildə daha da sürətləndiyini vurğulayıb. O bildirib ki, hərbi nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, habelə aparılan təcrübə mübadilələri ordularımız arasında əlaqələrin daha da genişlənməsinə təkan verib.

Öz növbəsində, Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Azərbaycana səfərindən məmnunluğunu ifadə edərək, səmimi qəbula görə öz minnətdarlığını bildirib. General-leytenant M.Xusainov Qazaxıstanın da Azərbaycan ilə hərbi əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu diqqətə çatdırıb. O bunun hər iki ölkənin maraqlarına cavab verdiyini vurğulayıb.

Tərəflər Azərbaycan ilə Qazaxıstan arasında ikitərəfli hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərini müzakirə ediblər. Onlar bu əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün geniş potensialın olduğunu bildiriblər.

**Görüşü ”Şərq”ə dəyərləndirən jurnalist, siyasi şərhçi Aqşin Kərimov bildirib ki, Türk Dövlətləri Təşkilatının daxilində aktivlik müşahidə olunmaqdadır:** ”Türkiyə maksimum dərəcədə çalışır ki, Azərbaycanla birlikdə təşkilatın gücünü mümkün təhdidlərə qarşı birgə cavab tədbiri kimi təkmilləşdirsin. İqtisadi gücü, siyasi birliyi təhlükəsizik ölçülərində saxlamaq da olduqca vacibdir və bunun üçün həlledici vasitələrdən biri də hərbi qüdrətdir. Türkiyə ilə Azərbaycan birgə hərbi təlimlər keçirir, bu sıraya Qazaxıstanın da qoşulması planlaşdırılır.

Yəni TDT (Türk Dövlətləri Təşkilatı) daxilində çoxformatlı hərbi məşqlərin vacibliyi ön plana çıxır. Digər tərəfdən hərbi təlimlər təhdidlərə qarşı təşkilatdaxili səylərin hərbi cəhətlərlə birləşdirilməsini simvolizə edir. Lakin məsələnin nəzəri tərəfindən başqa, gələcəyə hesablanan praktiki hədəfləri də mövcuddur.

Türkiyə qlobal mənzərədəki güclərə qarşı alternativ formalaşdırmaq niyyətini güdür və bunu xarici siyasətinin daşıyıcısına çevirir. Ankaranın Latın Amerikası, Afrika, Asiya və Avropadakı maraq dairəsinin genişlənməsi gələcək üçün barmaq yerlərini çoxaltmaqdır və bunu TDT-ni də öz məqsədlərinə nail olmaq marşrutunda həlledici amillərdən biri kimi görür. Türkiyə istəyir ki, TDT-ni Ankaranın regional hərbi mövcudluq gücünə proyeksiya tuta biləcək həddə qədər inkişaf etsin. Bu, Azərbaycanın da marağındadır. Artıq Bakı ilə Ankaranın strateji müttəfiqlik sənədinin hərbi səhifələri də bu fikirləri gücləndirir. Bu səylərə Qazaxıstanın, Qırğızıstanın, Özbəkistanın da cəlb edilməsi prosesinə hazırlıq mərhələsi icra edilir. Lakin hər şey rəvan getməyəcək”.

**Nihat Müzəffər**



# Dövlət fondlarının vəsaitləri sürətlə artır

## Şəffaf nəzarət mexanizmi təkmilləşdirilməlidir

**”Dövlət fondları parlament nəzarətindən kənarda olmamalıdır”. Bunu Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli ötən gün keçirilən iclasında deyib. Deputat vurğulayıb ki, dövlət fondlarının vəsaitləri sürətlə artır:**

”Son vaxtlar İcbari Tibbi Sığorta Fondunun yaradılması da bu vəsaitlərin artmasına səbəb olur. Vəsaitlər artdıqca həmin vəsaitlərdən istifadənin səmərəliliyini artırmaq üçün nəzarət mexanizmi təkmilləşdirilməlidir. Məsələn, Dövlət Sosial Müdafiə Fondunun büdcəsi 5 milyard manatdan çoxdur. Hansı məntiqə sığır ki, bu fond parlament nəzarətindən kənarda olsun?”.

**Əli Məsimli hesab edir ki, Büdcə Məcəlləsinin işlənib hazırlanması sürətləndirilməlidir:** ”DSMF, İşsizlikdən Sığorta Fondu, o cümlədən İcbari Tibbi Sığorta Fondunun vəsaitləri artdığına görə nəzarət gücləndirilməli, şəffaflıq artmalıdır. Belə şəraitdə ən yaxşı yol Büdcə Məcəlləsində birmənalı şəkildə bu fondların da icmal büdcəsinin müzakirəsinin parlament nəzarəti altında saxlanmasının vacibliyinin əksini tapmasıdır”.

**İsmayıl**

# Hədəfə doğru daha bir addım...

## Qırğızıstan da Türk Dövlətlər Təşkilatında güclü bəndə çevriləcək



### "Azərbaycanla Türkiyə zəncir həlqələrindən birini əsaslı şəkildə dirçəltmək istəyir"

**Prezident İlham Əliyevin Qırğızıstana ilk rəsmi dövlət səfəri reallaşdı. İki ölkə arasında mühüm sənədlər imzalandı. Xatırladaq ki, bir müddət öncə Qırğızıstan prezidenti Azərbaycana səfər etmişdi.**

Prezident İlham Əliyevin Qırğızıstana səfəri iki ölkə arasında əlaqələri daha da möhkəmləndirəcək. Azərbaycan prezidentinin Qırğızıstanda yüksək səviyyədə qarşılanması, Bişkekdə Qırğızıstan-Azərbaycan Dostluq Parkının açılması, Heydər Əliyev adına Məktəb-Gimnaziya təhsil-tərbiyə kompleksinin açılışı, ümumilikdə orada Azərbaycan, ümummilli lider Heydər Əliyev və Prezident İlham Əliyev haqqında söylənilən fikirlər Azərbaycanın dünyada və bölgədə artan nüfuzunun göstəricisidir. Ölkə başçısının həyata keçirdiyi uğurlu xarici siyasət nəticəsində bu gün dünyada və regionda Azərbaycana maraq daha da artıb. Hazırda dünyanın əksər ölkələri Azərbaycanla əlaqələri daha da möhkəmləndirməyə çalışırlar. Prezidentin xarici siyasətində türk dövlətləri ilə əməkdaşlıq prioritet istiqamətlərdən birini təşkil edir. Azərbaycan Türk Dövlətləri Təşkilatının fəaliyyətinin daha da güclənməsi üçün davamlı addımlar atır. Qurumun təşkilatlanmasında, daha da güclənməsində Türkiyə ilə Azərbaycan aparıcı rol oynayır.
Qırğızıstan Azərbaycanın təbii strateji müttəfiqi, türkdilli dövlətdir. Hər iki ölkəni tarixi, dini, mədəni tellər birləşdirir və səfər dövlətlərimiz arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ərəfəsində keçirilir. İki qardaş ölkə arasında formalaşmış səmimi münasibətlər günü-gündən inkişaf edir. Qırğızıstan Qazaxıstanla yanaşı, KTMT-yə üzvü olmasına rəğmən Azərbaycan əleyhinə hansısa layihələrdə iştirak etmir. Ölkələrimiz beynəlxalq platformalarda siyasi baxımdan vahid mövqe sərgiləyirlər.

**Siyasi şərhçi Aqşin Kərimov ”Şərq”ə deyib ki, Prezident İlham Əliyevin Qırğızıstana səfərini ikitərəfli və çoxtərəfli münasibətlərin dünyada cərəyan edən gərgin proseslərin bütün senarilər üzrə nəticələrinə hazırlıq kimi şərh etmək olar. Analitikə görə, ikitərəfli münasibətlər Azərbaycanla Qırğızıstan əlaqələrini dərinləşdirir:** ”Türk Dövlətləri Təşkilatı (TDT) qismində əlaqələrin şaxələndirilməsi və perspektiv iqtisadi qazanclara çıxış üçün resursların toplanması qarışıq dünya nizamında xüsusi əhəmiyyət qazanır. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsi yeni deyil, ölkə başçısı İlham Əliyevin Xəzər regionu ilə bağlı dediyi isə həmin marşrutun davamıdır. Ümumilikdə marşrut Çinin Mərkəzi Asiya vasitəsilə Avropa ilə artan əlaqələrini təmin etməsi üçün yeni mərhələ kimi qiymətləndirilə bilər. Nəqliyyat dəhlizi üçün Azərbaycanın da pay sahibi ola biləcək iki istiqamət mövcuddur. Birinci hissə Rusiya və Qazaxıstandan keçməklə Çindən Avropaya uzanan beynəlxalq nəqliyyat dəhlizidir. İkinci hissə isə Türkmənistan və Xəzər dənizi vasitəsilə Türkiyəyə, oradan da Avropaya ticarət marşrutudur, lakin bu, həyata keçirilməmiş qalır. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu marşrutu (təxmini dəyəri 4.5 milyard dollar həcmində qiymətləndirilir) və onun uzadılması Rusiya-Ukrayna müharibəsi ilə tədarük zəncirlərinin dəyişməsi fonunda yenidən canlandırılır. Qırğızıstanın razılaşdırılmış marşrut, maliyyələşdirmə problemləri maneələr olaraq qalır, lakin bu dəfə əlavə vəsaitlər cəlb etməklə layihəyə nöqtə qoyulması planlaşdırılır. Azərbaycan iqtisadi şəbəkələrdən pay götürmək qabiliyyətlərini sürətlə inkişaf etdirməyi qarşıya hədəf qoyub ona görə də, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsini öz maraqlarının sərhədləri daxilinə gətirir”.

**Ekspert vurğulayıb ki, TDT üçün yeni dividend Zəngəzur dəhlizi olacaq. Lakin vəziyyət ətalətdə qalmalı deyil və koridorun birbaşa və ya dolayı yollarla digər böyük marşrutlara inteqrasiyası labüddür:** ”Qırğızıstan maliyyə imkanları baxımından TDT ailəsində ”zəif bənd”dir, indi isə Azərbaycanla Türkiyə zəncir həlqələrindən birini əsaslı şəkildə dirçəltmək istəyir. Bunun üçün üz tutulacaq optimal mənbə Çindir. Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu Qırğızıstana tranzitdən gəlir etmək imkanı qazandıracaq, onun ixrac imkanlarını genişləndirəcək və iqtisadiyyatı əsaslı şəkildə canlanacaq. Digər TDT üzvü Özbəkistanın da əhəmiyyət şkalasında rəqəmləri müsbət mənada artırmasına töhfələr verəcək. Yəni TDT-nin iki üzvünün - Qırğızıstan və Özbəkistanın - proseslərdəki oyunçuluq qabiliyyətləri yeni düzənə uyğun şəkildə inkişaf etdiriləcək. Hərçənd, ortada siyasi sabitlik məsələləri də var. ABŞ-Britaniya tandeminin və Rusiyanın proseslərə hansı səviyyədə reaksiyalar verəcəyi fikirləri risk faktorlarını da gündəmə gətirir. Çünki Qırğızıstan siyasi cəhətdən qeyri-sabitdir, Özbəkistanda da xarici oyunçuların müdaxiləsi üçün əsaslar yarada bilən problemlər mövcuddur. Çin isə Qırğızıstandan keçən dəmir yolu xətti vasitəsilə özünün qərb sərhədlərini möhkəmləndirir və Pekinin böyüyən iqtisadi çərçivələrində yer tutan Orta Dəhliz amilini gücləndirir”.

**A.Kərimovun fikrincə, Bakı ilə Ankara Mərkəzi Asiyadakı mümkün münaqişə risklərindən sığortalanmaq üçün iqtisadi meyarlar formalaşdırır:** ”Bu mənada yaxın gələcəkdə Azərbaycanla Türkiyənin Mərkəzi Asiya regionundakı maraqları Çinin iqtisadi idealları, Qərbin və Rusiyanın maraqları kontekstində yeni dəyərə yüksələcək. Digər yandan Rusiya-Ukrayna müharibəsinin davam etməsi digər regionlardakı, o cümlədən Mərkəzi Asiyadakı iqtisadi layihələrdə pay sahibliyini artırmaq uğrunda iqtisadi müharibələri gücləndirəcək və bunu siyasi sabitliyə qarşı risk faktorları müşayiət edəcək”.

**İsmayıl Qocayev**

# "Əhməd Cavad arzulayırdı ki, Türk xalqlarının birliyi olsun"

## Anar Axundzadə: "Şükürlər olsun, biz onun ideyalarının tədricən həyata keçdiyinin şahidi oluruq"



**Bu gün milli istiqlal şairimiz, görkəmli tərcüməçi, yazıçı, publisist, dövlət himnimizin banisi, Azərbaycan Demokratik Cümhuriyyətinin qurucularından, Azərbaycan "Türk Ocağı"nın qurucusu, Vətənimizin və Türk Dünyasının münəvvər övladı Əhməd Cavadın sovet rejimi tərəfindən qətlə yetirildiyinin 85-ci ildönümüdür. Bu mənada "Şərq" olaraq Əhməd Cavadın nəvəsi Anar Axundzadə ilə söhbət etmək qərarına gəldik.**

**- Əhməd Cavad himnimizin müəllifidir, mənəvi babamızdır, hamımız onun nəvələriyik. Sizin isə qan babanızdır. Bu ad, bu soyad sizdə hansı hissləri oyadır?**

- İzah etmək çətindir. Hesab edin ki, Əhməd Cavadı düşünəndə həm də dodağında dövlətin himnini zümzümə edirsən. Vətənimizə, bayrağımıza həsr etdiyi şeirləri xatırlayırsan. Əhməd Cavad türk dünyasının bayraq şairi kimi qəbul edilir. Onun həyatı, yaradıcılığı həmişə xalqın azadlığı, müstəqillik və dövlətçiliklə bağlı olub. Dövlətimizin başçısı cənab İlham Əliyevin Əhməd Cavadın 130 illiyinin qeyd edilməsi haqqında Sərəncamında belə sözlər var: "Bütün qəlbi ilə bağlı olduğu doğma xalqının müstəqillik ideallarına həyatı boyu sadiq qalmış sənətkarın azadlıq motivləri ilə zəngin yaradıcılığı milli məfkurədən yoğrulub. Azərbaycanın dövlət rəmzlərini yüksək şeiriyyətlə alovlu tərənnüm edən şairin müstəqil dövlətçiliyə sevgi aşılayan əsərləri dərin vətənpərvərlik duyğularının heyrətamiz poetik ifadəsidir".

Əhməd Cavad arzulayırdı ki, Türk xalqlarının birliyi yaransın, Türk Milləti, Türk Dünyası vahid olsun. Övladları Azərbaycanın müstəqilliyinin, biz nəvələri də, şükürlər olsun, Əhməd Cavadın bu ideyalarının tədricən həyata keçdiyinin şahidi oluruq. Yenə də tədqiqatçının sözlərini xatırlayıram: "Əhməd Cavad keçmiş deyil, ideyaları və fədakarlığı ilə günümüzü gücləndirən bir gələcəkdir. Onun mübarizələri, ideyaları hələ də aktualdır və Türk Dünyasının yolunu işıqlandırır".

**- Əhməd Cavadın qohum-əqrəbaları, varisləri kimlərdir?**

- Əhməd Cavadın 4 oğlu, bir qızı olub. Qızı Almaz 16 yaşında xəstəlikdən vəfat edib. Əhməd Cavadın 10 oktyabr 1935-ci ildə yazdığı "Qızım üçün" şeirində belə misralar var:

*"On altıncı bahar, nə qanlı bahar!..*
*Ox, qızım, fələkdə nə dönüklük var!?"*

Oğlanları Niyazi, Aydın, Tukay və sonbeşiyi mənim atam Yılmaz. Niyazi əmimin üç övladı var və həyatdadırlar, Aydın əmimin iki övladından biri vəfat edib. Tukay əmimin də bir qızı vardı, o da vaxtsız köçdü dünyadan. Əhməd Cavadın sonbeşiyi Yılmaz Axundzadənin də sonbeşiyi mənəm, məndən böyük iki bacım var.

**- Atanız Yılmaz Axundzadə Əhməd Cavadla bağlı nələr ərz edirdi, onu necə xatırlayırdı?**

- Əhməd Cavad 1937-ci ilin iyunun 4-ü həbs ediləndə atam Yılmaz Axundzadənin iki yaşı olub. Xatırlamırdı atasını. Nənəm 1937-ci ilin oktyabr ayının 14-də həbs edilir. 8 il Qazaxıstandakı qadınların əsir düşərgəsi A.L.J.İ.R.- də tutulur. Atam danışırdı ki, anamdan utanırdım, üzünü xatırlamırdım, elə bilirdim yaddır. Müstəntiqlər Şükriyyə xanıma Əhməd Cavaddan boşanma təklifini edəndə Əhməd Cavad artıq həyatda deyildi. 1937-ci il oktyabrın 12-də cəmi iyirmi dəqiqəlik "məhkəmə"dən sonra onun güllələnməsinə qərar verilir.



***"Əhməd Cavadın ideyalarını, mübarizəsini, həyatını, hər şeyini, bütün fədakarlıqlarını təmsil edən Azərbaycan bayrağıdır"***





Rəsmi mənbələr Əhməd Cavadın 1937-ci ildə, oktyabr ayının 13-də, Bakıda güllələnərək öldürüldüyünü yazsa da, bir sıra qaynaqlar Şükriyyə xanımın da təsdiqi ilə onun oktyabrın 12-də Bayıl təcridxanasında işgəncələrdən öldüyünü bildirir. Görünür, tələm-tələsik "məhkəmə"nin keçirilməsinin və hökmün guya 13-ü gecə icra edildiyinin rəsmiləşdirilməsinin səbəbi də Əhməd Cavadın artıq həyatda olmaması ilə bağlı olub. Qazaxıstandan qayıdıb Şəmkirə yerləşdikdən sonra Şükriyyə xanım elə bilib ki, Əhməd Cavad hələ də sağdır. Onunla həbsxanada görüşə bilmək üçün uzun illər, müxtəlif dövlət orqanlarına, hətta SSRİ Nazirlər Sovetinin sədrinə müraciət edib.

Yalnız 1955-ci ildə Şükriyyə xanıma Əhməd Cavadın hələ 1937-ci ildə öldüyü xəbərini veriblər. Əhməd Cavad və Şükriyyə xanımın dörd uşağından üçü islah müəssisələrinə, kiçik oğlu, atam Yılmaz Axundzadə isə bir müddət nənəmlə təcridxanada saxlandıqdan sonra NKVD-nin tabeliyində olan yetimlər evinə verilib. Şükriyyə xanım yalnız səkkiz il yarımlıq əsirlikdən sonra övladlarına qovuşa bilib.

**- Babanız Azərbaycanın tarixinə, milli yaddaşımıza dövlət qurucusu, Milli istiqlal şairi kimi həkk olunub. Bu yüksək ad hər kəsə qismət olmur...**

- Qeyd etdiyiniz kimi, Əhməd Cavad Azərbaycanın İstiqlal şairidir. Doğrudan da, hər bir şairin, hər bir yaradıcı insanın öz xalqının tarixində mühüm yer tutması üçün bundan yüksək zirvə ola bilməz, məncə. Millətimiz Azərbaycan ədəbiyyatı tarixində bu adı Əhməd Cavada layiq bilib. Əhməd Cavadın həyat və yaradıcılığıyla bağlı tədqiqatçıların sözlərini xatırlayıram: "Azərbaycan bayrağına nəzər saldıqda Əhməd Cavadın bütün ideyalarının, mənəvi dünyasının, düşüncə dünyasının, bütün mübarizəsinin təzahürünü görürük. Azərbaycan bayrağındakı həmin qırmızı zolaq Əhməd Cavadın qanıdır. Damarlarından axan qan, uğrunda, ailəsini, hər şeyini fəda etdiyi qandır Onun türklüyüdür, milliyyətidir. Azərbaycanın bayrağındakı o yaşıl zolaq onun mənəviyyatı, imanı, əqidəsi və islamıdır. Azərbaycan bayrağındakı mavi xətt, mavi hissə onun tərəqqisi, mütərəqqi tərəfi, baxışıdır. Öz milləti üçün düşündüyü bütün yaxşı amillərdir. Öz millətinin namuslu bir millət kimi yaşamaq istəyi və gözləntisi, o mavi xətdir. Odur ki, Əhməd Cavadın ideyalarını, mübarizəsini, həyatını, hər şeyini, bütün fədakarlıqlarını təmsil edən Azərbaycan bayrağıdır və o Azərbaycan bayrağı səmada dalğalanarkən və onun altında Azərbaycan Respublikası qurulanda heç şübhəsiz ki, Əhməd Cavadın ideyaları, Əhməd Cavadın düşüncələri və Əhməd Cavadın yaradıcılığının ifadə etdiyi anlayışlar üzərində qurulmuşdur". Düşünürəm ki, hamımızın babası Əhməd Cavadın bu anım günündə onun bir şeirini yada salmaq yerinə düşərdi:

***Bir bilən yox ki, nə çəkər sənsiz,***
***Sənin eşqinlə yaşayan könlüm?!***
***Sən keçən yolda görərək bir iz,***
***İzin üstündə ozana döndüm!***

***Çəkdiyim dərdimi saza anlatdım,***
***Dərdli barmağımla teli ağlatdım!***
***"Bizə gəl!" dedin, bir addım atdım,***
***Bir addım yolumda min cənnət gördüm!***

***Bulaq üstündə yığışır qızlar,***
***Geciksən azacıq, ürəyim sızlar!***
***Soruşdum bulağa dedi məndə var,***
***Suda əksini axtarıb tapdım!***

**- Bütün əsərləri kimi, çox gözəl şeirdi...**

- Çox sağ olun!

*Ruhun şad, məkanın cənnət olsun, ey Böyük Əhməd Cavad!*

**Müsahibəni hazırladı: Ayyət Əhməd**



**"Media Reyestri sisteminin testləri artıq bitib". Bunu Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov deyib. O bildirib ki, Media Reyestri yaxın günlərdə istifadəyə veriləcək: "Media reyestrinə düşmək üçün media subyektlərinin müraciəti vacibdir".**

Ə.İsmayılov media subyektlərində monitorinqlərin aparılması məsələsinə də toxunub: "Təkzib vermə, cavab vermə qaydaları burada əsas amildir. Monitorinq üçün Mətbuat Şurası ilə birlikdə iş aparacağıq".

# "İstinadla bağlı monitorinq aparmaq üçün proqram təminatı var"

## Əhməd İsmayılov: "Reyestrdə olmayan jurnalistlərin fəaliyyəti ilə bağlı məhdudiyyət olmayacaq"

Medianın İnkişafı Agentliyinin İcraçı direktoru deyib ki, bizdə istinadla bağlı monitorinq aparmaq üçün proqram təminatı var. Onun sözlərinə görə, hansısa saytda məlumat gedirsə, o məlumatın həmin media subyektinə aid olub-olmadığını ayırd edə bilirlər: "Bundan başqa, istinad halları ilə bağlı pozuntuların da qarşısının alınması üçün videoscreen metodu tətbiq edirik. Artıq bir xəbərin ilk olaraq hansı saytda dərc edildiyini təyin etmək çox asandır".

Əhməd İsmayılov deyib ki, Media Reyestrində olmayan jurnalistlərin fəaliyyəti ilə bağlı heç bir məhdudiyyət olmayacaq. Onun sözlərinə görə, vəsiqənin arxasında olan barkod vasitəsilə jurnalist haqda bütün məlumatları əldə etmək mümkün olacaq: "Vəsiqə özü-özlüyündə jurnalistlərə üstünlük vermir. Sadəcə, reyestrdə olmaq faktını təsdiqləyir. Bu da jurnalist adından istifadə hallarının qarşısını alacaq. Jurnalist vəsiqəsi ilə akkreditasiya daha da sadələşdirilmiş olacaq". Ə.İsmayılov əlavə edib ki, regionlarda mətbuatın fəaliyyətində bəzi problemlər var: "Mətbuat Şurası ilə bu mövzuda təhlillər aparılır. Bundan sonra əldə edilmiş məlumatlar əsasında hansı layihələrin həyata keçirilməsi müəyyənləşdiriləcək".

**İsmayıl**



# Oyunçular qazanır

## Son bombardmandan sonra çıxış yolu Kiyev-Moskva danışıqlarından keçir

**Amerika Birləşmiş Ştatlarının Prezidenti Co Bayden deyib ki, Volodimir Zelenski yetərincə kömək ala bilməməsi ilə bağlı şikayətləri dayandırmalıdır. Bayden bildirib ki, Zelenski kömək istəməyə davam edərsə, Kiyev üçün Konqresdən pul istəmək çətin olacaq. Qeyd edək ki, ABŞ-ın Maliyyə naziri Canet Yellen yaxın həftələrdə Ukraynaya 4,5 milyard dollar yardım edəcəklərini açıqlamışdı.**

Zelenski dəfələrlə Qərbdən yetərli maddi və hərbi yardım ala bilməməsindən gileylənib. Lakin bəzi ekspertlərə görə, Ukrayna rəhbərinin məqsədi Qərbdən daha ciddi və genişmiqyaslı siyasi-hərbi dəstək almaqdır.

***"Avropa Vaşinqtonun maraqlarına görə Rusiya ilə savaşa girmək fikrində deyil. Avropa Vaşinqtonla müttəfiqlik münasibətlərini qorumaq naminə öz maraqlarını qurban verməyəcək"***

**Politoloq Azər Rəşidoğlu "Şərq"ə bildirib ki, Qərb hələ də Ukraynaya vəd etdiyi yardımı göstərməyib. Bu da Kiyevin narazılığı ilə yanaşı, Kremli daha böyük hərbi cinayətlərə sövq edib. Analitik vurğulayıb ki, siyasət maraqlar uğrunda savaşdır:** "Avropa üçün Rusiya böyük qonşudur. Bu baxımdan, Avropa Vaşinqtonun maraqlarına görə Rusiya ilə savaşa girmək fikrində deyil. Avropa Vaşinqtonla müttəfiqlik münasibətlərini qorumaq naminə öz maraqlarını qurban verməyəcək. Amerikanın Çin və Rusiya təhdidləri ilə bağlı təbliğatı çətin ki, uğurlu olsun. Vaşinqton Moskva və Pekinə nə qədər düşmən kimi baxırsa və vahid cəbhədən danışırsa, Avropa ölkələrini öz bayrağı altında birləşdirə bilmir. Strateji konsolidasiya real görünmür. Məntiqi nəticə 21 fevral 2022-ci il müqaviləsinin hazırlanmasında Fransa və Almaniya ilə birlikdə mühüm rol oynayan Polşanın "Avropa xoru"nu tərk etməsi Kremlə uzanan barışıq əli idi. Polşa artıq öz oyununu oynamaq istəyir. Avropalı müttəfiqlərini birləşdirən ABŞ müxtəlif gündəmlər arasında aktiv manevrlər edir. Rusiya ilə iqtisadi əlaqələrin pozulması dinamikası transatlantik müttəfiqlərin Moskva ilə sərt qarşıdurmaya fərqli yanaşdığını nümayiş etdirdi. Aİ ölkələri Rusiya ilə iqtisadi əlaqələrin qorunmasında, xüsusilə enerji sahəsində əməkdaşlıq seqmentində daha çox maraqlıdırlar. Odur ki, Aİ-nin ayrı-ayrı üzvləri Moskvaya qarşı iqtisadi sanksiyalar tətbiq etməyə hazır olmadıqlarını açıq dilə gətirdilər. Rusiya ilə ticarət-iqtisadi münasibətlərin saxlanmasında daha az maraqlı olan Vaşinqtonun faktiki olaraq təkləndiyi üzə çıxır".

*A.Rəşidoğlu bəyan edib ki, ABŞ siyasətinin "xaç atası" Henri Kissincer reallığı dərk etdiyi üçün Kiyev və Moskvanı barışmağa dəvət edir:* "O bildirirdi ki, Kiyev Krım və Donbassdan imtina etməli, Avropa üçün parçalayıcı rol oynamamalıdır. Sual yaranır, bəs, on minlərlə günahsız insanın ölümü, dağıdılmış şəhərlər necə olsun? Bütün bunlar dünya üçün bir statistikadır, qurban verilən ukraynalılardır. Son bombardmandan sonra vəziyyət dalana dirənib. Sanki çıxış yolu Kiyev-Moskva danışıqlarından keçir. Bir sözlə, Avropa 24 fevral 2022-ci ilə qayıtmaq istəyir. ABŞ siyasətinin "qoca tülküsü" Kissincer də bunu təklif etmişdi. Əgər Putin bu savaşdan simasını qorumaqla xilas ola bilsə, Kremlin imperiyaçı iddiaları da artacaq. İlk təhlükə zonası isə MDB məkanı olacaq".

**İsmayıl Qocayev**



# Heç vaxt gec deyil

## Bakılılar tramvaylara qayıtmağı arzulayır

**Media Təhlil Mərkəzi vətəndaşların ictimai nəqliyyatla bağlı fikirlərini öyrənib.**

MTM-nin sorğusunda iştirak edən respondentlərin 86 faizi ictimai nəqliyyatdan mütəmadi, 12,1 faizi nadir hallarda istifadə edir. İştirakçıların 1,9 faizi ictimai nəqliyyatdan istifadə etmədiyini deyib. Nəticələr göstərir ki, respondentlərin 62,1 faizi avtobusdan, 26,8 faizi metrodan, 8,7 faizi taksidən, 2,4 faizi sürət qatarından daha çox istifadə edir. Sorğu iştirakçılarının 52,6 faizi ölkəmizdə tramvayın, 34,6 faizi metrobusun, 12,8 faizi trolleybusun fəaliyyət göstərməsini istəyir.

Xatırladaq ki, bir neçə il əvvəl tramvayların Bakıya qayıtması ilə bağlı layihələrin icrası aktual idi. Hətta Fransanın "Alstom" dəmiryol nəqliyyatı şirkəti Bakıda tramvay xətlərinin bərpası layihəsinin reallaşdırılması ilə bağlı Azərbaycan tərəfinin qərarını gözləyirdi.

Sorğu iştirakçılarının fikirlərini dəstəkləyən ekspertlər də hesab edir ki, Bakı şəhərində tıxacları aradan qaldırmaq üçün ən alternativ yol paytaxtda tramvay və trolleybus xətlərinin çəkilməsidir.

***Ekspertlər isə hesab edir ki, bu infrastrukturun yaradılması üçün isə kifayət qədər böyük maliyyə vəsaiti tələb olunur***

**"Nəqliyyat təhlükəsizliyi" Araşdırmaları və Tədqiqatlar Mərkəzinin rəhbəri İlqar Hüseynli isə deyib ki, əgər ekoloji cəhətdən sərfəli olan əvvəlki nəqliyyat vasitələrinin sistemi dağıdılmasa idi, hazırda ciddi üstünlüyümüz olardı:** "Hazırda tramvay və trolleybusların fəaliyyət strukturunun yaradılması üçün isə kifayət qədər böyük maliyyə vəsaiti tələb olunur. İndiki iqtisadi şəraitdə də bu işə başlamaq gecikmiş qərar ola bilər. Tramvay xətlərinin bərpa olunması ciddi maliyyə tələb edir. Əvvəldən bu xətlər saxlansaydı, indi istifadə etmək üçün köhnə infrastrukturun üzərində yeniləmələr edə bilərdik. Yenidən tramvay xətlərinin qurulması asfalt örtüyünün zədələnməsinə, prospektlərin ortasında qurulan lazımsız vasitələrin, işıq dirəklərinin sökülməsinə səbəb olacaq. Bu infrastrukturun qurulması bəlkə də illər aparacaq prosesdir. Əslində bu problem şəhərsalmanın ilk dövrlərində həll edilməli idi. İndi tramvay reyslərinin inşa edilməsi üçün avtomobil yolları dağıdılmalıdır. Düzdür, onlar ictimai nəqliyyatda tıxac probleminin həlli baxımından əhəmiyyətli nəqliyyat növləridir. Lakin bu gün tramvay və trolleybusların işə salınması sərfəli deyil. Tıxac problemini həll etmək üçün bu gün Türkiyədə tətbiq edilən metrobusların fəaliyyətə başlamasına nail ola bilərik. Hansı ki, bu, bir qədər az vəsait tələb edən işdir".

**Şəymən**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi**



# Əsas meyar yenə peşəkarlıqdır

## Media Reyestrinə düşən jurnalistlərin fəaliyyətinə hər hansı maneə olmayacaq

**Azərbaycanda jurnalist vəsiqəsinin forması, vəsiqənin verilməsinə və ya dəyişdirilməsinə görə ödənişin məbləği və həmin vəsaitdən istifadə qaydası təsdiq edilib. Media Reyestrinə daxil edilmiş jurnalistlərə Medianın İnkişafı Agentliyi tərəfindən jurnalist vəsiqəsi veriləcək.**

Jurnalist vəsiqəsi jurnalistlərin tanınan hüquqlarının müdafiəsi mexanizminin təkmilləşdirilməsi və daha operativ təşkil edilməsi, onların inkişafına dəstək layihələrinin iqtisadi və hüquqi əsaslandırmasının formalaşdırılması, akkreditasiya prosedurunun daha sürətli və səmərəli həyata keçirilməsinin təmin olunması məqsədi daşıyır.

Jurnalist vəsiqəsinin verilməsinə və dəyişdirilməsinə görə ödənişin məbləği 20 manat təşkil edir. Bildirilib ki, vəsait jurnalist vəsiqəsinin verilməsinə və ya dəyişdirilməsinə görə Agentliyin bank hesabına edilən ödənişlər hesabına formalaşdırılır.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılovun sözlərinə görə, "Media haqqında" Qanunun müvafiq müddəalarına nəzər salsaq görərik ki, həmin müddəalara əsasən Agentlik tərəfindən veriləcək vəsiqələr, əslində, jurnalist fəaliyyəti ilə məşğul olmaq hüququnu təsdiqləyən sənəd deyil: "Bu, sadəcə olaraq, jurnalistlərin Media Reyestrində qeydiyyata düşdüklərini təsdiq edən sənəddir. Bu sənəd heç də media subyektlərinin öz əməkdaşlarına verdiyi sənədi əvəzləmir, onlar o sənədləri verməkdə sərbəstdirlər və bizim verdiyimiz vəsiqə ilə yanaşı, həmin redaksiya tərəfindən özlərinin istəklərinə uyğun olaraq verdikləri sənədləri daşımaqda və təqdim etməkdə sərbəst olacaqlar.

İcraçı direktor bildirib ki, jurnalist vəsiqəsinin verilməsinin üstünlüyü həmin sənədi təqdim edən şəxsin artıq Azərbaycanın Media Reyestrində olduğunu təsdiqləməsindən ibarətdir. Jurnalistlər həmin vəsiqələrin üzərində olan xüsusi barkodlardan istifadə edərək agentliyin elektron sistemində yerləşdirilən məlumatları avtomatik təqdim etmiş olacaq. Bununla da jurnalistlər dövlətin həyata keçirdiyi layihələrdən və güzəştlərdən rahat və sərbəst şəkildə istifadə edə biləcəklər: "Jurnalist vəsiqələri üçün ödəniş 20 manat məbləğində təsdiq olunub. Hər dəfə vəsiqə yeniləndiyi zaman ümumi xərclər nəzərə alınaraq ödəniş olunacaq. Ödənişlərin edilməsi tamamilə şəffaf, elektron informasiya sistemi üzərindən olacaq. Şəffaflığın təmin edilməsi Agentlik tərəfindən həyata keçirilib".

Medianın İnkişafı Agentliyinin (MEDİA) Media Reyestri xidmətinin rəhbəri da əməkdaşlıq edirsə, bu zaman o, sistemə həmin müqavilə haqda məlumatlarla yanaşı, sənədin özünü də yükləməlidir. Beləliklə, onun hansı media subyekti ilə əməkdaşlıq etdiyi və həmin subyektin reyestrə daxil edilib-edilmədiyi aydınlaşdırılacaq, müvafiq qərar qəbul ediləcək.

Media Reyestrinə müraciət tam elektronlaşmış şəkildə həyata keçiriləcək. Buna baxmayaraq, təcrübə göstərir ki, elektron hökumət üzərindən inteqrasiya prosesində bəzi hallarda müəyyən məlumatların mübadiləsində çətinliklər müşahidə oluna bilər. Bu da bir sıra obyektiv səbəblərə

Cahangir Həsənli isə deyib ki, Media Reyestri istifadəyə verildikdən sonra həm media subyektləri, həm də jurnalistlər müvafiq qaydalara uyğun olaraq müraciətlərini formalaşdıra biləcəklər. Amma burada diqqət edilməli olan bir önəmli məqam var. Hamınıza məlum olduğu kimi, "Media haqqında" Qanunun və "Media Şurasının aparılması Qaydaları"nın tələblərinə əsasən jurnalistin reyestrə daxil edilməsi üçün şərtlərdən biri onun əmək müqaviləsi və ya mülki hüquq müqaviləsi bağladığı media subyektinin Media Reyestrində olmasıdır. Yəni jurnalist reyestrə müraciət edənə qədər artıq onun işlədiyi və ya əməkdaşlıq etdiyi media subyekti Media Reyestri şəhadətnaməsini əldə etməlidir: "Müraciət zamanı əmək müqaviləsi elektron hökumət portalından sistemə inteqrasiya olunacaq. Yox əgər jurnalist media subyekti ilə mülki hüquq müqaviləsi əsasında əsaslanır.

Belə ki, müvafiq sistemlər özündə bəlli bir tarixdən sonraya aid məlumatları əks etdirir. Bu kimi hallarda müraciətçi qanunvericiliyə uyğun olaraq inteqrasiya olunmayan informasiyalara dair sənədləri Agentliyə kağız daşıyıcıda təqdim edə bilər".

**Mətbuat Şurasının İdarə Heyətinin üzvü, Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərlinin sözlərinə görə, Media Reyestrinin tətbiq olunması və müavfiq vəsiqələrin verilməsi jurnalist işinin asanlaşdırılması üçün atılmış növbəti addımdır. Jurnalistlər Medianın İnkişafı Agentliyinin müvafiq vəsiqəsini almadan da maneəsiz fəaliyyət göstərə biləcəklər.**

Ekspert deyib ki, jurnalist vəsiqələrinin hazırlanma və təqdim edilməsi ölkədə Media Reyestrinin tətbiq edilməsi ilə bağlı prosesin davamı və onun tamamlanmasıdır: "Ölkəmizdə Media Reyestrinin yaradılması barədə həm qanun tələbi, həm də Prezident İlham Əliyevin müvafiq fərmanı var. Bu baxımdan, ölkədə Media Reyestrinə düşən KİV subyektlərinə arayışlar, reyesterdə qeydə alınan jurnalistlərə isə jurnalist vəsiqəsi veriləcək. Bu, tamamilə könüllü xarakter daşıyır. Jurnalistlər öz ərizəsi ilə müraciət edərək reyestrə daxil ola biləcək. Bir şərtlə ki, onlar reyestrə düşmək barədə meyarlara cavab versinlər. Burada tətbiq olunan meyarlar əslində peşəkarlıq meyarlarıdır. Reyestrə düşmək jurnalist işinin asanlaşdırılmasına xidmət edir".

*M.Ələsgərlinin sözlərinə görə, sözügedən jurnalist vəsiqəsi jurnalistin həqiqətən jurnalist olduğunu deyil, müraciət etmiş şəxsə dair məlumatların həqiqətən reyestrə daxil edildiyini təsdiq edən müəyyən formalı sənəddir və peşəkarlıq meyarı olaraq çıxış etmir.*

"Jurnalist vəsiqəsi beynəlxalq standartlar əsasında hazırlanıb və üzərində QR kodlar mövcuddur. O QR kodu oxutmaqla Media Reyestrinin baza məlumatlarına yönəlmək mümkün olacaq ki, bu da jurnalist haqqında informasiyaların tez bir zamanda görünməsinə şərait yaradacaq. Burada diqqətçəkən əsas məsələ odur ki, ölkədə artıq bununla yalnız redaksiyalarda, ştatda çalışan jurnalistlərin deyil, həm də ölkə tarixində ilk dəfə olaraq sərbəst çalışan jurnalistlərin hüquqları da tanınmış olur. Çünki bu vəsiqələr Media Reyestrinə düşmüş, təkcə əmək müqavilələri ilə deyil, xidmət müqavilələri ilə çalışan jurnalistlərə də şamil olunur. Media Reyestrinə düşməyən jurnalistlərin fəaliyyəti üçün hər hansı bir maneə olmayacaq. Media Reyestrinin tətbiq olunması, vəsiqələrin verilməsi jurnalist işinin asanlaşdırılması üçün atılmış növbəti addımdır".

**Şəymən Bayramova**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# "Əlbəttə yazıçının soğan, kartof kimi öz kitablarını piştaxta arxasında satması xoşagələn hal deyil"

## Aqşin Yenisey: "Amma problemi ironiya, lağlağı ilə yox, daha fundamental şəkildə qabardıb həll etməliyik"



**Tənqidçi, ədəbiyyatşünas Əsəd Cahangir kitab sərgiləri ilə bağlı səsləndirdiyi fikirlə diqqət çəkib. Onun sözlərinə görə, ölkəmizdə təşkil olunan kitab sərgiləri yazıçılara çevrilib.**

*Məsələyə münasibət bildirən şair Aqşin Yenisey bu barədə "Şərq"ə danışarkən söyləyib ki, Azərbaycanda yazıçıların öz kitablarını satması ədəbiyyatımızın bugünkü mənzərəsidir:* "Məncə, yazıçının öz beyninin məhsulunu satması çox normal və dünyada qəbul olunmuş bir prosesdir. Ola bilsin ki, bunun forması bir az uyğun seçilməyib. Dünya ölkələrində yazıçıların kitablarını daha çox nəşriyyatın özünün satış mərkəzləri bazarlayır. Amma Azərbaycan reallıqları başqadır.

Məsələn, sərgidə kitab satan yazıçıların əksəriyyəti həmin kitabları öz büdcəsi ilə çap etdirir. Maya dəyərini öz cibindən ödədiyinə görə istəyir ki, qazancı da özünə qalsın. Onlar öz kitablarını hansısa nəşriyyatın və ya sponsorun hesabına satmırlar. Əlbəttə, yaxşı olardı ki, bütün dünyada olduğu kimi bizdə yazıçıların kitabları nəşriyyatların kitab mərkəzlərində satılsın. Amma Azərbaycan ədəbiyyatının reallıqlarını görməzdən gəlib, şairlərin, yazıçıların, guya, bu işə can atması təəssüratını da yaratmaq doğru deyil. Mən bir neçə ölkədə ədəbiyyat sərgisində olsam da, belə mənzərəyə rast gəlməmişəm. Əslində bizim yazarlar imkansızlıqdan bu yola əl atırlar. Burdan əldə olunan gəlir isə inanın, onların heç gündəlik məişət xərclərini belə ödəmir. Əsəd Cahangir və ya bu fikirdə olan digər adamlar problemin kökünə nəzər salıb, onun həllinə çalışsalar daha gözəl olar".

**A.Yeniseyin fikrincə, indi Azərbaycan yazıçısı niyə küçədə kitab satır? Niyə nəşriyyat sistemi bu vəziyyətdədir? - kimi suallara cavab tapmaq və belə ciddi məsələni gündəmə gətirib həllinə çalışmaq lazımdır:**

"Məsələdə həqiqət payı da var. Bir yazıçının soğan, kartof satıcısı kimi piştaxta arxasında durub öz kitablarını satması təbii ki, xoşagəlməz bir şeydir. Bu, kitabın nüfuzunun aşağı düşməsinə gətirib çıxarır. Şairin, yazıçının cəmiyyətdəki obrazına da xələl gətirir. Problemi ironiya, lağlağı ilə yox, daha fundamental şəkildə qabardıb həll etməliyik".

**Günəş Mərd**

Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstana dövlət səfəri çərçivəsində Azərbaycan hökuməti ilə Qırğızıstan Nazirlər Kabineti arasında Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun yaradılması haqqında Saziş imzalanıb. Bildirilir ki, Fond Azərbaycan və Qırğızıstan arasında iqtisadi əməkdaşlığı inkişaf etdirmək, iqtisadiyyatı modernləşdirmək və imkanlardan səmərəli istifadə etmək məqsədilə yaradılıb.



# Mühüm mərhələ başlayır

## Elnur Eltürk: "Azərbaycanın Orta Asiya ölkələri ilə bağlı ciddi strateji hədəfləri var"

Birgə ikitərəfli investisiya fondunun nizamnamə kapitalı 25 milyon ABŞ dollarıdır. Qərargah isə Bişkekdə yerləşəcək.

**Azərbaycan dövlətinin Orta Asiya ölkələri ilə əlaqələrin inkişafını diqqətdə saxladığını deyən Türk Ağsaqqalları Birliyinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri, "Vikipediya" üzrə mütəxəssis, diaspor üzrə araşdırmaçı-ekspert Elnur Eltürk "Şərq"ə bildirib ki, əlaqələrin inkişafı ilə bağlı hər iki tərəfin qarşılıqlı marağı var:** "Ümumiyyətlə, son zamanlarda qarşılıqlı səfərlərin sayı artıb. Bu, onu göstərir ki, Azərbaycan dövlətinin Orta Asiya ölkələri ilə əlaqələrini inkişaf etdirməsi ilə bağlı ciddi strateji hədəfləri var.

Dil, din kimi ortaq dəyərlər isə əlaqələrin inkişaf etdirilməsini zəruri edir. Biz nəzərə almalıyıq ki, Orta Asiyada Özbəkistan, Qazaxıstan kimi inkişaf edən türk ölkələri mövcuddur. Bir neçə ildir ki, Orta Asiyada milli-mənəvi dəyərlərin, özünəqayıdış prosesi sürətlənib. Bir zamanlar Orta Asiya dövlətləri Türk birliyi ideyası ilə bağlı yanaşmanı kənardan izləyirdilər.

Bu gün fərqli mənzərənin şahidi oluruq. Onlar özləri türk dövlətlərinin birliyi prosesində fəal iştirak edirlər. Vətən müharibəsindən sonra Azərbaycanın Orta Asiyada nüfuzu daha da yüksəlib, ölkəmizə olan diqqət artıb. Bir neçə ay əvvəl Türk Ağsaqqalları Birliyi olaraq Qırğızıstanda səfərdə idik. Gördük ki, Bişkek və ətraf rayonlar inkişaf etməkdədir. Qırğızıstanda Türkiyənin təsir imkanları getdikcə artır.

Son illərdə isə Azərbaycan-Qırğızıstan əlaqələri inkişaf etməkdədir. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin Qırğızıstanda yüksək səviyyədə qəbul olunması və Qırğızıstan Prezidenti Sadiq Japarovun ölkə başçımızı hava limanında qarşılaması səfərə nə qədər önəmin verildiyini göstərir.

İki ölkə liderinin bəyanat və açıqlamaları isə əlaqələrin inkişafı üçün yeni perspektivlər vəd edir. Azərbaycan Prezidentinin bir sıra açılış mərasimlərinə qatılması əlaqələrin real inkişafından xəbər verir".

**E.Eltürk onu da əlavə edib ki, Azərbaycan-Qırğızıstan İnkişaf Fondunun yaradılması da əlaqələrin inkişafında yeni mərhələnin əsasını qoyacaq:** "Bu çox ciddi addımdır. Atılan addımlar yaxınlaşmanı daha da sürətləndirəcək. Yaradılan fond azərbaycanlı iş adamları arasında Qırğızıstana yatırımların qoyulmasında böyük maraq yarada bilər. Bu həm də qarşılıqlı investisiyanın yatırılmasına təsir göstərəcək. Bütün istiqamətlərdə yaxınlaşmalar isə ümumi Türk fondunun yaradılmasını sürətləndirir".

**Nihat Müzəffər**

# "Şəxsən mənim Çingiz Abdullayevə münasibətim müsbətdir"

## Şahbaz Xuduoğlu: "Şərif Ağayarın açıqlaması "Qanun"un mövqeyi kimi qələmə verilməli deyil"

**Xalq yazıçısı Çingiz Abdullayev Konkret.az-a müsahibəsində ona edilən tənqidlərə münasibət bildirib: "Təbii ki, məni hər kəs sevə bilməz. Amma həqiqətən mənə təsir edir ki, Ermənistanda məni oxuyurlar, amma Azərbaycanda mənə qarşı axmaq təfəkkür var".**

Almaniyanın Drezden şəhərindəki erməni klublarında belə onun əsərlərinin sevildiyini vurğulayan Ç.Abdullayev deyib ki, Azərbaycanda fəaliyyət göstərən "Qanun" nəşriyyatının baş redaktoru haqqında: "Abdullayev bu qədər kitabı özü yaza bilməz. O, mafiya başçısıdır, kimsə ona yazmaqda kömək edir" kimi sözlər deyib. Halbuki, onun nəşriyyatı Azərbaycan dilində mənim 78 kitabımı nəşr edib: "Mən onu yığıb xahiş elədim ki, yazın ki, mən pis adamam, yazın ki, kitablarım çıxmır, kitablarımı oxumurlar, yazın ki, ümumiyyətlə, məni qəbul etmirlər, amma belə deməyin. Axı siz belə deyəndə məni yox, Azərbaycan yazıçını biabır edirsiniz. Çünki onda bizim qonşular və digərləri deyəcək ki, bunların yazıçısı, Yazıçılar Birliyinin Birinci katibi fırıldaqçıdır, kitablarını özü yazmır. Azərbaycanlılar belə xalqdır, bizi aldadırlar. Halbuki, Ermənistanda hamı məni oxuyur, 32 dilə kitablarım tərcümə olunub. Nə edək ki, bizdə paxıllıq var?!".

**"Qanun" Nəşrlər Evinin rəhbəri Şahbaz Xuduoğlu "Şərq"ə açıqlamasında Çingiz Abdullayevin şəxsiyyətinə və yaradıcılığına çox böyük hörmət etdiyini və onun kitablarını sevə-sevə oxuduğunu deyib: "Biz bu barədə Çingiz Abdullayevlə bir neçə dəfə söhbət etmişik. "Çingiz Abdullayev bu qədər kitabı özü yaza bilməz" sözünü illər əvvəl yazıçı Şərif Ağayar deyib.** Aradan illər keçib, amma nəyə görəsə Çingiz müəllim bu sözləri unuda bilmir. Onu da deyim ki, Şərif Ağayar bu sözləri deyəndə "Qanun"da baş redaktor deyildi. Təbii ki, indi də dediklərinin üzərində dayanır. Yəni "Qanun"da baş redaktor işləyir deyə biz onun fikirlərinə, düşüncələrinə məhdudiyyət qoyası deyilik ki? Şərif Ağayar bir yazar olaraq həmkarı Çingiz Abdullayev haqqında düşüncələrini paylaşıb və bu onun öz işidir. Bu açıqlama "Qanun"un mövqeyi kimi qələmə verilməli deyil. Şəxsən nəşriyyat sahibi olaraq mənim Çingiz Abdullayevə qarşı münasibətim çox müsbətdir. Onun yazdıqları da, danışdıqları da çox rəngarəngdir. Onun bütün açıqlamalarına məmnuniyyətlə qulaq asıram. Hətta bir dəfə özünə də demişəm ki, sizin yazdıqlarınıza şübhə edənlər, danışığınıza nə deyirlər!? Burada ki, şübhəyə yer yoxdur".



**Bir naşir olaraq Ç.Abdullayevdən razılığını dilə gətirən Ş.Xuduoğlu onun sadəliyi və səmimiliyindən danışıb:** "Heç bir dəvətimi geri çevirməyib. Çağırdığımız bütün tədbirlərə ürəklə iştirak edib. O, gələcəm deyib, min bir bəhanə uyduran yazarlardan deyil. Həmişə sözünün ağası olub. Ola bilsin, "Qanun" Nəşriyyatında işləyən birinin onun haqqında tənqidi fikirdə olması ona xoş gəlmir. Özünün də qeyd etdiyi kimi, bizim nəşriyyat onun yaradıcılığına yüksək qiymət verir. Onlarla kitablarını Azərbaycan və rus dillərində nəşr etmişik. Həm də dediyim kimi, Şərif Ağayar bu sözləri "Qanun"dan əvvəl deyib".

**Şəymən**

# Kimisi qazanır, kimisi isə sadəcə "tora" düşür

## Taksi sürücülərinin narkotika alverinə qurşanması ehtimalı araşdırılmalıdır



**"Uber" taksi sürücülərinin narkotik alverilə məşğul olduqları iddia olunur. Bu barədə jurnalist Könül Aypara "Facebook" hesabında bildirib.**

"Uber" sürücüsünün Yasamalda narkotik alveri ilə məşğul olduğunu qeyd edən jurnalist bu halın ilk olmadığını, hətta dəfələrlə təkrarlandığını deyib: "Özləri cəhənnəmə, kiminsə balasını zəhərləyir və müştərilərinin həyatını təhlükə altına alır".

Jurnalist paylaşımında Daxili İşlər Nazirliyinə və Baş Narkotiklərlə Mübarizə İdarəsinə müraciət edərək, taksi sürücüləri barədə ölçü götürülməsini tələb edib.

Qeyd edək ki, bu gün ölkədə taksi fəaliyyəti ilə məşğul olaraq keçimini təmin edən minlərlə insan var. Narkokuryerlərin taksi fəaliyyəti ilə məşğul olması, çörəyini taksi fəaliyyətindən qazanan şəxslərə qarşı da şübhə yaradır.

**Taksi sürücülərinin narkotik vasitələrin satışını əks etdirən məlumatların yayılmasına münasibət bildirən narkomaniya üzrə ekspert Emil Maqalov "Şərq"ə açıqlamasında deyib ki, sürücülər adətən narkotik vasitələri onlayn satan şəxslərə "kuryer"lik edir:** "İnsanların sosial durumunun aşağı olmasından istifadə edən, psixoloji təsir altına tez düşən insanları dərhal ələ alan narkotacirlər özlərini göstərmədən satış şəbəkəsini qurmağa nail olur. İşsiz-gücsüz, ehtiyac içində yaşayan insanlar da qeyri- ixtiyarı razılaşır. Bu şəbəkələr "tora saldıqları" insanlara əvvəlcədən 200-300 manat ödəniş etməklə həm şirnikləndirir, həm də bu işin öhdəsindən gəlsələr daha çox qazanacaqlarına inandırır. Narkotacirlər narkotik vasitələri müxtəlif yerlərdə, ağacların, kolların dibində gizlədirlər. Narkotik istifadəçiləri və narkokuryerlər də həmin yerə gedərək alacaqları maddəni əldə edirlər. Taksi fəaliyyəti ilə məşğul olan şəxslərin narkotik vasitələri onlayn satan şəxslərin "tor"una düşmə ehtimalı çoxdur. Bəziləri bunu bilərəkdən gəlir qazanmaq məqsədi ilə edir. Bəziləri isə apardığı bağlamanın içərisində nə olduğunun fərqinə belə varmır. Müştəridən təhvil alıb qeyd olunan ünvanda onu gözləyən şəxsə təhvil verir və çıxır gedir".

Taksi sürücülərini ayıq-sayıq olmağa çağıran ekspertin sözlərinə görə, sürücülər tanımadıqları adamlardan götürdüyü bağlamanı mütləq yoxlamalı və nə apardığını bilməlidir. Bu işi könüllü görən taksi sürücüləri isə bilməlidir ki, bu gün qazanacaqları 200 manat sabahı gün azadlıqlarının məhdudlaşdırılmasına səbəb olacaq. Bu məhdudlaşdırma isə ən azı 7 ildən başlayır. 1000 manata görə ən azı 7 il həbs cəzası alıb, azadlıqdan məhrum olmağa dəyərmi!?

**Şəymən**

# Din, yoxsa "dəb"?

## Şəkidə eyni ərazidə üç gəncin eyni üsulla intiharı ciddi SOSdur



**Şəki şəhərinin Dağdibi adlanan ərazisində 3 gənc eyni üsulla intihar edib, qısa zaman aralıqları ilə; iyulun 24-ü, sentyabrın 19-u, oktyabrın 9-u. Bu barədə " Qafqazinfo"ya istinadən xəbər verib. Sonuncu intihar hadisəsi oktyabrın 9-u, gecə saat 01 radələrində şəhərin həmin ərazisindəki Nəriman Nərimanov küçəsində, bağ sahəsində baş verib. 1998-ci il təvəllüdlü Sayiq Səbuhi oğlu Sayiqzadə özünü asaraq intihar edib.**

Sentyabrın 19-da elə həmin küçədə Şəki şəhər sakini, 21 yaşlı Məhəmməd Rahim oğlu Kərimov canına qıyıb. O da özünü asıb. 24 iyul tarixində gecə saat 03 radələrində isə N.Nərimanov küçəsinə qonşuluqda yerləşən Muxtar Hacıyev küçəsində 1994-cü il təvəllüdlü Zahir Məzahir oğlu Həmidov eyni üsulla həyatına son qoyub. Şəkidə son iki ay yarım ərzində eyni ərazidə 3 gəncin oxşar üsulla intihar etməsi sakinlərin narahatlığına səbəb olub. Hazırda baş vermiş hadisələrlə bağlı aidiyyəti qurumlar tərəfindən araşdırmalar aparılır.

3 gəncin qısa aralıqlarla eyni üsulla intihar etməsinə nə səbəb ola bilərdi? 21, 24 və 28 yaşlı gəncləri intihara vadar edən güclü bir səbəb olmalıdır. Yoxsa insan niyə həyatına qəsd etsin? İntihar etmiş gənclərin eyni bölgədə, eyni ərazidə yaşamaları da diqqət çəkir. Birisinin intiharı digər ikisini də buna təhrik edə bilərmi?

**Psixoloq Azad İsazadə "Şərq"ə açıqlamasında konkret hadisə haqqında danışmağın, mülahizə yürütməyin çətin olduğunu dedi:**

- Kütləvi intihar halları dünyada görünən haldır. Əgər intihar edənlərin sayı 1-dən artıqdırsa, bu, kütləvi intihar sayılır. Konkret Şəkidə baş vermiş intihar hadisələri eyni gündə, eyni saatda baş verməsə də, özünə qəsd edənlərin eyni bölgədə, eyni və qonşu küçədə yaşamaları, hadisənin daha dərindən təhlilini, hətta deyərdim ki, elmi ekspertiza aparılmasını vacib edir. İstintaq aparılacaq, müəyyən məqamlar üzə çıxacaq, lakin 3 gənc insanın qısa zaman aralıqları ilə intihar etməsinin kökündə dərin səbəblər dayana bilər. Burada ya dini məsələdir, ya da başqa səbəblər var. Xatırlayarsınız, bir müddət əvvəl təhlükəli kompüter oyunu "dəb" olmuşdu - "Mavi balina". Bu oyun iştirakçıya müxtəlif tapşırıqlar verirdi, son tapşırıq isə özünə qəsd etmək olurdu. Nə qədər gənc, yeniyetmə bu oyunun qurbanı oldu. Ola bilsin, indi də ona bənzər hansısa kompüter, internet oyunları meydana gəlib. Ümumiyyətlə, kompüterdə, internet resurslarda, smartfonlarda, "İPhone" telefonlarına yüklənmiş oyunların əksəriyyəti zorakılığı təbliğ edir. Bu cür oyunlar insanlarda aqressiya yaradır və onu gücləndirir. Ölümü isə "adiləşdirir". Həssas insanlar, psixoloji cəhətdən zəif olanlar, depressiya vəziyyətinə düşmüş insanlar üçün bir qığılcım yetərlidir ki, canına qəsd etsin. Səbəblər arasında dini təriqətə qoşulmaq, təsir altına düşmək, kimlərdənsə təhdid almaq da var. Bunlar yalnız ehtimallardır, lakin hər biri üzərində dəqiq iş aparılmalıdır. İntiharların "dəb" halını alması da bir ehtimaldır. Bəzən belə olur ki, insanın fikrində, düşüncəsində intihar etmək var. Baş vermiş bir intihar hadisəsi isə bu fikrin reallaşmasına təkan olur. Baş verəcək hadisədə sonuncu damla rolunu oynayır. Onsuz da insan intihara meylli idi, depressiyada idi, bir intihar hadisəsi onun üçün qığılcım rolunu oynadı və o da intihara əl atdı. İntiharların artması, bəzi insanlarda belə bir yanlış fikir formalaşdırır ki, deməli, intihar etmək asandır. Lakin bu, çox təhlükəlidir. İntiharların təqlid edilməsi təcrübəsi də var. Məsələn, İraq prezidenti Səddam Hüseyn nümayişkaranə şəkildə - asılma yoluyla qətlə yetirildikdə dünya bu hadisənin zəncirvari reaksiyasını izlədi. Dünyanın bir çox yerində özünü asanlar, intihar edənlər oldu, eyni üsulla. Ona görə də bu cür hadisələr ictimailəşməməlidir. Ölüm hökmünün ləğvi də insanların həyatına qəsd etməsinin qarşısını alan ən uyğun yoldur. 3 gəncin intiharı isə mütləq ciddi araşdırılmalıdır ki, bu intiharların səbəbləri bilinsin.

**Məlahət Rzayeva**

# "Adrenalin"in ölkəyə gətirilməsi vacibdir

## Bunlarsız bir çox əməliyyatlar və tibbi müdaxilələr imkansız olur




**Milli Məclisin 11 oktyabrdakı iclasında, millət vəkili Rüfət Quliyev ölkədəki dərman qıtlığı barəsində məsələ qaldırıb. Deputat bildirib ki, bir neçə həkim ona məlumat göndərib:**

"Bu müraciətlər TƏBİB-ə aiddir. Bu gün bir aydan çoxdur ki, "Adrenalin" adında dərman yoxdur. Buna görə də 10-larla cərrahiyyə əməliyyatı dayandırılıb. Hansısa işbazlar 1 manatlıq olan bu dərmanı 100-150 manata satırlar. İkincisi isə qlükoza və hidrogen xlorofil fizioloji məhlul dərmanı tapılmır. Çünki bunlar ölkəmizə Ukraynadan gəlir.

Bu dərmanlar Türkiyədə rahat satılır. Bizim bir ay əvvəl fikrimiz var idi ki, Türkiyədə satılan dərmanları Azərbaycana da gətirək. Bu problem təcili aradan qaldırılmalıdır".

**Sözügedən dərmanların tibdə çox vacib olduğunu deyən tibb və fəlsəfə elmləri doktoru, həkim Şəmsiyyə Namazlı "Şərq"ə bildirib ki, adıçəkilən dərmanların yenidən ölkəyə gətirilməsi çox vacibdir:** "Bu dərmanlar kardiologiya, cərrahiyyə, anesteziya kimi vacib şöbələrdə işlənir. Bunlarsız bir çox əməliyyatlar və tibbi müdaxilələr imkansız olur. Hətta anafilaktik şok və ilkin tibbi yardım zamanı da "Adrenalin"dən istifadə olunur.

Bunların hər biri tibb məntəqəsinin dərman dolabında mütləq yer almalı olan dərmanlardır. Bunlar dövlət səlahiyyətində olan məsələlərdir və tədbirlər əvvəlcədən görülməli idi.

Bir neçə aydır ki, vəziyyət belədir. Bunlar elə preparatlardır ki, onların əvəzedicisi də yoxdur. Bunun ehtiyat tədbirləri mütləq nəzərə alınmalı idi".

**Nihat Müzəffər**

# Yüzlərlə gənc var ki, pullu təhsil almaq imkanı yoxdur

## Onlar üçün geniş şəkildə kredit imkanları da yaradılmayıb

**Sabunçu rayonu, Pirşağı qəsəbəsində intihar hadisəsi qeydə alınıb. 18 yaşlı Miriyev Sabir Lütfiyar oğlu evdə özünü asaraq həyatına son qoyub. Məlumata görə, Sabir Türkiyədəki universitetlərdən birində oxuyurmuş. O, təhsil haqqını ödəyə bilmədiyi və bilet almağa pul tapmadığı üçün canına qəsd edib. Hazırda araşdırma aparılır.**



***Təhsil Nazirliyi tərəfindən ödənişli təhsil alan tələbələr üçün güzəştli proqram çoxdan hazırlanmalı idi***

İqtisadçı Fuad İbrahimov hadisə ilə bağlı "Şərq"ə danışarkən bildirib ki, bu, bir xalqın faciəsidir: "Sağlam cəmiyyətlərdə təhsil almaqdan ötrü maddi imkanı olmayan birinin belə bir həddə gəlib çatdırılması yolverilməzdir. Biz bu sistemi artıq kökündən dəyişməliyik. İlk növbədə heç olmasa tələbələr üçün güzəştli kredit imkanları yaradılmalıdır. 1990-cı illərin əvvəllərinə qayıtsaq görərik ki, Azərbaycan MDB dövlətləri arasında test sistemini ən birinci tətbiq edən ölkələrdən biri olub. Bununla da şəffaf şəkildə təhsilini davam etdirmək istəyən abituriyentlərin tələbə olmaq imkanı yaranıb. Sovetlər vaxtında hər hansı maraqlar çərçivəsində sosial rifahı yaxşı olmayan ailələrin övladları bu imkana malik deyildi. Məhz bizim test üsuluna keçid etməyimizlə istənilən təbəqənin övladının şəffaf yolla ali məktəbə qəbul olmasına şərait yarandı. Amma sonrakı mərhələdə isə ölkəmizdə pullu təhsil sistemi yaranmağa və şaxələnməyə başladı. Beləliklə də testin mahiyyəti də itdi. Hazırda imtahanla istər yerli, istərsə də xaricdəki universitetlərə qəbul olan yüzlərlə gənc var ki, onların pullu təhsil almaq imkanı yoxdur. İllik təhsil haqqını ödəyə bilmirlər. Tələbələr üçün geniş şəkildə kredit imkanları da yaradılmayıb".

**Ekspert onu da diqqət çatdırıb ki, imtahanla qəbul ola bilməyən kifayət qədər abituriyent də attestatla Türkiyə, eləcə də digər ölkələrə üz tutur:** "Bu da maddiyyata bağlı məsələdir. Tələbə ödəniş edə bilmir və yenə də qapalı dairə yaranır. Elə bir sistem qurublar ki, burdan xaricə gedən tələbə ödənişsiz təhsil almaq üçün ən azı 600-650 bal yığmalıdır. Belə olmalı deyil axı. Bu ballar da müəyyən qədər aşağı endirilməlidir. Təhsildə tarazlıq pozulub".

İqtisadçının qənaətincə, Təhsil Nazirliyi tərəfindən ödənişli təhsil alan tələbələr üçün güzəştli proqram çoxdan hazırlanmalı idi: "Müəllimləri lazımsız ixtisasartırma kurslarına göndərməkdənsə, bu istiqamətdə işlər görmək lazım idi. Heç kim bu haqda düşünmür. Arada Milli Məclisdə məsələnin həlli üçün bir sıra təkliflər səsləndirilsə də, elə orda da qalır. İcra olunmur. İndi də bunun nəticəsində cavan bir insan canına qəsd etdi. Mövcud təhsil sistemimizdə olan qüsurlar həmin gəncin aramızdan ayrılmasına başlıca səbəbdir".

**Günəş Mərd**

### Elanlar

"AQAT-MM" MMC
VÖEN: 1500228961
"AQAT-MM" MMC (VÖEN:1500228961) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "AQAT-MM" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

---

"ATLANT-İNŞAAT" MMC
VÖEN: 1000101391
"ATLANT-İNŞAAT" MMC (VÖEN:1000101391) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "ATLANT-İNŞAAT" MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

---

"GİLAN" MMC
"GİLAN" MMC (VÖEN: 1400130241)aşağıdakı şirkətlərin "GİLAN" MMC-yə qoşulduğunu və bunun nəticəsində yenidən təşkil olunduğunu elan edir:

1. AQAT-MM" MMC (VÖEN:1500228961)
2. "ATLANT-İNŞAAT" MMC (VÖEN:1000101391)
3. "BAHÇECİ BAKI QADIN SAĞLAMLIQ MƏRKƏZİ" MMC (VÖEN:1303908471)
4. "BAKU RENDERİNG" MMC (VÖEN:1304555431)
5. "D.S. DYNAMİC SOFT" MMC (VÖEN:1303803011)
6. "DİZAYN+"MMC (VÖEN:2000982041)
7. "EVENTS MANAGEMENT AZERBAİJAN" MMC (VÖEN:1304737151)
8. "GİLAN AQRO SİTRUS"MMC (VÖEN:2601589811)
9. "GİLAN AQRO" MMC (VÖEN:1402468001)
10. "GİLAN İDMAN KLUBU MMC (VÖEN:1402368111)
11. "GİLAN PİANO" MMC (VÖEN:1401413541)
12. "GİLAN & PİD" MMC (VÖEN:1400730251)
13. "GİLAN PLASTİK" MMC (VÖEN:1401788571)
14. "GİLAN SERVİS" MMC (VÖEN:1402137961)
15. "GİLAN TURİZM" MMC (VÖEN:1400629151)
16. "GİLAN-ÜLKER TRADİNG" MMC (VÖEN:1402297271)
17. "GİLAN ZEYTUN" MMC (VÖEN:1401684851)
18. "İNŞAAT SERVİS+" MMC (VÖEN:1500055311)
19. "JALƏ" UŞAQ BAĞÇASI (VÖEN: 4400677191)
20. "KASPİAN MOBİL"MMC (VÖEN:1500504751)
21. "MİRVARİ PARK RESİDENCE" MMC (VÖEN:1304652951)
22. "NƏSİB KİÇİK MÜƏSSİSƏSİ"(VÖEN:2900558571)
23. "NTEV" MMC (VÖEN:4400006211)
24. "OĞUZ NƏŞRİYYAT" MMC (VÖEN:1402585701)
25. "QAFQAZ OTELLƏRI BAKI" MMC (VÖEN:1305250381)
26. "QAFQAZ-LƏNKƏRAN" MMC (VÖEN:2602738021)
27. "RESİDENCE TOVVER" MMC (VÖEN:1304663701)
28. "ŞİRVAN İNŞAAT" MMC (VÖEN:4800052981)
29. "ŞİRVAN NƏQLİYYAT" MMC (VÖEN:4800053081)
30. "ŞİRVAN SƏNAYE" MMC (VÖEN:4800053101)
31. "TOVUZ QİDA MƏHSULLARI MÜƏSSİSƏSİ" MMC (VÖEN:7301189921)
32. "URBN İNTERNATİONAL DEVELOPMENT" MMC (VÖEN:1305561341)
33. "URBN LANDSCAPES" MMC (VÖEN:1306021221)
34. "URBN REAL ESTATE GROUP" MMC (VÖEN:1305548201)
35. "URBN REAL ESTATE SERVİCES" MMC (VÖEN:1305549531)

---

"NTEV" MMC
VÖEN: 4400006211
"NTEV" MMC (VÖEN:4400006211) fəaliyyətinə xitam verilərək "GİLAN" MMC-yə (VÖEN: 1400130241) qoşulduğunu və "GİLAN" MMC "NTEV MMC-nin ona qoşulması nəticəsində yenidən təşkil olunduğunu elan edir.

---

Az.Respublikası FHN-nin Yasamal rayon 30-cu YMB-nin əməkdaşı daxili/xidmət baş çavuşu Əhmədov Tural Vidadi oğluna məxsus xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor: Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor: Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks: AZ1073

Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611
SWIFT BIK AII-BAZ2X h/h
AZ17AIIB38070019441100466111
Kod 200112 M/H
AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 2933



## 3 yaşlı uşaq motosiklet sürdü

Atanın oğlunun görüntülərini paylaşması gündəm olub



**Türkiyədə keçmiş motosiklet yarışçısı olan Kənan Sofuoğlunun 3 yaşlı oğlu ilə motosiklet sürərkən görüntüləri müzakirə mövzusu olub.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, AKP-dən 27-ci Dövr Sakarya millət vəkili seçilmiş Kənan Sofuoğlunun 3 yaşlı oğlu Zayn Sofuoğlunun motosiklete mindiyi anlar sosial mediada gündəmə çevrilib. Görüntülərdə Sofuoğlunun oğlu 560 cc-lik motosikletlə yolda hərəkət edir. Həmin anları Sofuoğlu özü izləyiciləri ilə bölüşüb.

Oğlunun bu görüntüləri kimlərdəsə heyranlıq oyatsa da, bəzi sosial media istifadəçilərinin sərt reaksiyasına da səbəb olub. Keçmiş çempion sosial şəbəkədə yazılan mənfi fikirlərlə bağlı bunları deyib: "Bilməyənlər boş-boş danışmağa davam edə bilər. Biz də işimizi görməyə davam edəcəyik. Allaha şükür edirik".

**Turan**

## Uelsdə orta əsrlərə aid 240 məzar tapılıb



**Uelsdə köhnə mağazanın altından orta əsrlərə aid 240 məzar tapılıb.**

Azərtac xəbər verir ki, 2013-cü ildə bağlanan "Ocky White" adlı bir əsrlik mağazanın altında aparılan qazıntılar zamanı insan sümükləri tapılıb. Mağazanın altındakı qəbiristanlığın 1256-cı ildə Dominikan rahibləri tərəfindən əsası qoyulduğu güman edilir. Qazıntı işlərinə rəhbərlik edən Endryu Şobbrok bildirib ki, burada ən varlısından tutmuş kasıb insanlara qədər müxtəlif şəxslərin məzarları var. Şobbrok bəzi kəllə sümüklərində çapıqların olduğuna diqqət çəkərək, bu insanların müharibədə ox və ya güllə ilə vurulmuş ola biləcəyini də irəli sürüb. Arxeoloqlar qəbiristanlığın 18-ci əsrin əvvəlinə qədər istifadə olunduğunu deyirlər. Tapılan skeletlərin təxminən yarısı uşaqlara aiddir.





# "Ümid dalğası"

## Meqan və Şahzadə Harri rəsmən xeyriyyəçi elan edildi



**Meqan Markl və Şahzadə Harri xeyriyyəçiliklərinə görə ABŞ-da 54 yaşlı insan haqları təşkilatından mükafat alıblar. Xeyriyyəçiliyi sübuta yetirilən cütlüklə eyni mükafatı alanlar arasında Ukrayna Prezidenti Zelenski də var.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, məşhur cütlük Robert Kennedi İnsan Haqları Assosiasiyası tərəfindən "Ümid dalğası" mükafatına layiq görülüb.

Ctlük qurduqları " Archie" Fondu vasitəsilə irqi ədalət, psixi sağlamlıq və digər sosial təsirli təşəbbüslərinə və gördükləri işlərə görə mükafatlandırılıblar. Onlar fonda oğulları Arci adını veriblər.

Mükafat sosial dəyişikliklərə sarsılmaz sadiqlik nümayiş etdirən və bərabərliyi, ədaləti və insan hüquqlarını qorumaq və inkişaf etdirmək üçün çalışanlara verilir.

Harri və Meqanın işinə əfqan qaçqınlarını dəstəkləmək, Ukraynaya kömək edən təşkilatlara sərmayə qoymaq və NAACP (Qara İnsanların İnkişafı üzrə Milli Assosiasiya) ilə ilk Rəqəmsal Mülki Hüquqlar Mükafatının yaradılması daxildir.

Robert Kennedinin İnsan Hüquqları üzrə prezidenti Kerri Kennedi deyib: "Mart ayında hersoq və hersoginya mükafat dəvətimizi qəbul edəndə çox həyəcanlandıq. Cütlük hər zaman bütün dünyada irqi ədalət və psixi sağlamlıq haqqında danışmaq və vəziyyəti dəyişmək istəyi ilə seçilib".

ABŞ-ın keçmiş baş prokuroru Robert Kennedinin qızı Kerri Kennedi isə bunları deyib: "Onlar atamın bir vaxtlar "dünyanı dəyişmək istəyənlər üçün yeganə vacib, həyati keyfiyyət" adlandırdığı mənəvi cəsarəti təcəssüm etdirirlər".

Qeyd edək ki, Meqan və Harri cütlüyünün mükafatını aldığı Robert Kennedi İnsan Haqları təşkilatı ABŞ-da yerləşən insan haqlarını müdafiə edən təşkilatdır. Sui-qəsd nəticəsində öldürülən ABŞ senatoru Robert Kennedinin adını daşıyan təşkilat 1968-ci ildə yaradılıb.

**Turan**

## Pişik tülkünü baş nazirin iqamətgahından qovdu





**Dauninq-strit 10-da yaşayan pişik Larri Britaniyanın baş naziri Liz Trassın iqamətgahına girən tülküyə qalib gəlib.**

**O, özündən bir neçə dəfə böyük olan yırtıcını qovub.**

**Oxu.az xəbər verir ki, Larri ilə tülkü arasındakı döyüşün görüntüləri sosial şəbəkələrdə yayılıb.**

***Qeyd edək ki, pişik 10 ildir ki, öz "vəzifəsində xidmət edir" və indiyədək dörd baş nazir dəyişib.***

## Tatlısəs qızına 600 minlik qızıl kəmər hədiyyə edib



**Xəbər verdiyimiz kimi, türkiyəli müğənni İbrahim Tatlısəsin özü kimi ifaçı olan qızı Dilan Çıtak Tatlısəsin ötən gün toyu olub.**

**Axşam.az xəbər verir ki, ifaçı qızının toyunda ona qızıl kəmər hədiyyə edib. Kəmərin qiymətinin 600 min lirə (təxminən 54 min 935 manat) olduğu ortaya çıxıb.**

***Qeyd edək ki, Tatlısəs oğlu İdonun toyunda gəlini Yaseminə də eyni kəmərdənhədiyyə etmişdi.***

## "Məni əzəcəklərini düşünürlər, əslində..."

**Hadisə boşandıqdan sonra ilk dəfə danışdı**



**Məşhur türkiyəli müğənni Hadisə həyat yoldaşı, iş adamı Mehmet Dinçerlerdən boşandıqdan sonra ilk dəfə açıqlama verib.**

**Axşam.az xəbər verir ki, ifaçı 11 oktyabr - Beynəlxalq Qızlar Günü münasibəti ilə təşkil olunan konfransda iştirak edib. O, çıxışı zamanı etdiyi açıqlamalarla diqqət çəkib.**

**"Mənə edilən hücumlardan sonra "Niyə bunu yaşayıram? demirəm. Məni əzəcəklərini düşünürlər. Belə bir şey yoxdur. Güclənirəm! Siz sadəcə danışın" deyə, Hadisənin işlətdiyi fikirlər qısa müddət ərzində sosial media seqmentində yayılıb.**

**Müğənni evliliyinin qısa çəkməsi və boşanmasına rəğmən özünü hələ də güclü hiss etdiyini bildirib.**



# Vəhşi təbiəti çəkdilər

## Və qalib oldular



**Hər il mükafatlandırma mərasimi keçirilən "İlin vəhşi təbiət fotoqrafları (Wildlife Photographer Of The Year) müsabiqəsi bu il də maraqlı görüntülərlə yadda qalıb. Qorilla meymununun son anlarını, bir evə daxil olan qütb ayıları, bəbirin qovladığı dağ keçiləri Bunlar professional və həvəskar fotoqrafların obyektivə aldığı təbiət mənzərələri arasında ən yaxşılardandır.**



"NTV.com.tr" ilk 20-də yer alan fotoları və müəllifləri təqdim edib. Amerikalı fotoqraf Karine Aigner çöl arılarının cəmləşmə anını, rusiyalı Dmitri Kok bir evə daxil olmuş qütb ayılarını, boliviyalı Junji Takasago dünyanın ən böyük duz gölündəki flaminqoları, Juan Hernandez Martinez "toy quşu"nun rəqsini, Laurent Ballesta Antarktikanın fərqli yaşam mənzərələrini, Tony Vyu dəniz ulduzunun elektriklənmə anını, Brent Stirto isə Konqodakı heyvanxanada həyatla vidalaşmaq üzrə olan qorillanın son anlarını fotoaparatın obyektivinə alıb. Seçilmiş və mükafatlandırılmış fotolar arasında Amatitlan Gölünün üzləşdiyi ekoloji fəlakət, Şaqraq quşunun görüntüsü, bir ilanın yarasanı yaxalama anı, Tailandda "Bryde" balinasının fotosu, balıq qartalı, çalıquşunun dincəlməsi anları, şahinlərin göyə qalxması, dağ keçilərinin dalaşması, həmçinin bəbirin dağ keçilərini qovlaması anlarını əbədiləşdirən fotolar və onların müəllifləri var.

**Məlahət**

## "Facebook"da izləyicilər azalır

Problem qlobaldır, hətta Mark Zukerberqin də profilinə təsir edib




**Bu gün "Facebook" sosial şəbəkəsində bəzi istifadəçilərin izləyicilərinin azalması müşahidə olunur.**

Məsələ ilə bağlı Mətbuat Şurasının üzvü, informasiya texnologiyaları üzrə mütəxəssis Fərid Pərdəşünas Trend-ə bildirib ki, problem qlobaldır, hətta "Facebook"un yaradıcısı Mark Zukerberqin də profilinə təsir edib.

Onun sözlərinə görə, baş verən hadisənin "Facebook"da yaranan bir xətadan olduğu güman edilir.

"Bəzi hesablarda izləyicilərin sayı düzgün göstərilsə də, bir çoxunda say səhv göstərilir. Bir çox insan düşünür ki, bu, bot hesabların silinməsidir. Bəzi istifadəçilər təşvişə düşüblər ki, profillərinə müdaxilə olunub və izləyiciləri silinib, lakin bu, belə deyil. Problemin nə vaxt aradan qaldırılacağını demək çətindir. Çünki "Facebook" tərəfindən rəsmi açıqlama verilməyib", - deyə ekspert bildirib.

## Britaniyanın ən zəngin rəssamı...

Milyonlarla dollar dəyərində sənət əsərlərini yandırır





**Britaniyalı məşhur rəssam Damien Hirst milyonlarla dollar dəyərində sənət əsərini yandırıb. "Şərq" xarici mediaya istinadən xəbər verir ki, İngiltərənin "ən zəngin rəssamı" kimi tanınan Damien Hirst, NFT versiyalarını satdığı sənət əsərlərinin əslini külə döndərib.**

Yeni çıxardığı kolleksiyasının həm NFT, həm də satış variantı mövcud olduğunu deyən Hirst, əsərlərin NFT versiyaları satıldıqdan sonra orijinal versiyasını yandıracağını söyləyib.

Yanmaz kombinezon və əlcək geyinən 57 yaşlı rəssam Londondakı "Newport Street Gallery"də əsərlərini alova verib. Hirst bu anları həm də sosial media hesabında canlı yayımlayıb. 10 min əsərin yer aldığı "The Currency" adlı kolleksiyanın işlərinə 6 il əvvəl başlanılıb. Rəssam əsərlərini satmaqdansa saxlamağa üstünlük verib və alıcılara istəsələr NFT versiyalarını təqdim edə biləcəyini söyləyib.

Yandırılan sənət əsərlərinin təxminən 10 milyon dollar dəyərində olduğu bildirilir.

Əsərlərini öz əlləri ilə yandıran sənətçi "Gözlədiyimdən də yaxşı hissdir" deyib.

Hirst "rəngli nöqtələrdən" ibarət sənət əsərləri ilə tanınır. Oktyabrın sonuna kimi daha minlərlə əsərin külə dönəcəyi bildirilir.

**Turan**